Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

3
İYUL
2019-cu il

№ 115 (4013)

Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

# ERMƏNİ MEDİASI RUSİYA-TÜRKİYƏ YAXINLAŞMASINI AÇIQ ŞƏKİLDƏ ERMƏNİSTANA ZƏRBƏ PERSPEKTİVİ KİMİ DƏYƏRLƏNDİRMƏYƏ BAŞLAYIB

■ səh. 6 ■

Son bir neçə ayda ermənilərin sülh prosesinə əsas təxribat tezisləri və əməlləri...

■ səh. 3 ■

Erməni mediasında "azərbaycanlıların İsa bulağında kef məclisi" təxribatı...

■ səh. 7 ■

Rusiyanı AŞPA-dan sona qədər qovmaq istəyən bir neçə ölkə xüsusi demarşa hazırlaşır

■ səh. 6 ■

Paşinyan ABŞ-dan olan şəhər meri ilə Ermənistan-Amerika münasibətlərini gizli müzakirə edib...

■ səh. 5 ■

Polis daha bir ildönümünü arxada qoydu - Azərbaycanda pozulmaz polis-sabitlik tandemi...

■ səh. 4 ■

Bakıda 200-dən artıq qəzalı binanın gələcəyi necə olacaq...

■ səh. 11 ■

Azərbaycanda dayanıqlı inkişafın əsas hərəkətverici qüvvələrindən biri - Dövlət Neft Fondu...

■ səh. 13 ■



■ səh. 8 ■

## ABŞ və İran müharibənin bir addımlığında... Vaşinqton Tehranın nüvə obyektlərinə nüvə zərbəsi endirməyi nəzərdən keçirir





**Rusiya institut rəhbərindən Qarabağ probleminin həlli üzrə yeni format təklifi...**

■ səh. 5 ■

Azərbaycanın uğurlu siyasi gedişləri Ermənistanı regionda daha aciz duruma saldı - erməni ekspertlər İrəvanın Rusiya təsirini Ankara ilə əvəzləməsini təklif edirlər...

■ səh. 9 ■

**UNESCO-nun Bakı sessiyası erməni işğalındakı abidələrimizi beynəlxalq sənədə saldı**

■ səh. 10 ■

■ səh. 3 ■

Media rəhbərlərinin Moskva görüşləri Rusiya-Azərbaycan münasibətlərinə ziyan vurmaq istəyənlərin cəhdlərini xeyli neytrallaşdıra bilər



■ səh. 11 ■

Banklar kredit faizləri məsələsində ümumi narazılığı dərinləşdirməkdə davam edir...



■ səh. 12 ■

Məmurlar Azərbaycanın öz avtomobillərindən istifadə etsə, 200 minlik maşın söz-söhbətləri çıxmaz...



■ səh. 12 ■

Əmlak sığortası ilə bağlı qanuni sanksiya sərtləşdirilir...



■ səh. 15 ■

Səhiyyəmizdə saxta diplomlar məsələsi yenidən gündəmdə...



## UNESCO-nun 43-cü Bakı sessiyasında dialoqun gücləndirilməsinə həsr olunan hesabat müzakirə edilib

**Bakıda UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası iyulun 2-də öz işini iştirakçı ölkələrin təmsilçilərinin çıxışları ilə davam etdirir. "Trend"in məlumatına görə, sessiyanın növbəti günündə üzv dövlətlərlə məşvərət qrupları arasında dialoqun gücləndirilməsinə həsr olunan hesabat müzakirə edilib. Sessiyanın təşkilat komitəsinin sədri, Azərbaycanın Mədəniyyət naziri Əbülfəs Qarayev müzakirə olunacaq hesabat barədə danışıb və hər kəsi müzakirələrdə fəal olmağa çağırıb.**




Sonra Azərbaycan, Norveç, Tanzaniya, İndoneziya, Bəhreyn, Braziliya, Macarıstan, Küveyt, Qvatemala, Tunis, Avstraliya, Çin və digər ölkələrin təmsilçiləri təqdim olunan hesabatla bağlı fikirlərini bölüşüblər. Bildirilib ki, dialoqun qurulması üçün belə hesabatlar mühüm əhəmiyyət daşıyır.

Çıxış edənlər Ümumdünya İrs Komitəsinin son illər gördüyü işlərdən və dünyada mədəni irsin qorunması istiqamətində reallaşdırılan layihələrdən də danışıblar.

## AŞ PA-nın Azərbaycan üzrə həmməruzəçisi ölkəyə səfərə gəlir

**Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) Azərbaycan üzrə həmməruzəçisi Stefan Şennax iyulun 4-dən 6-dək ölkəyə səfər edəcək.**

"Trend"in məlumatına görə, səfər çərçivəsində həmməruzəçi hökumət nümayəndələri ilə görüşəcək.

Bundan başqa, parlament sədri, parlamentdə təmsil olunan partiyaların rəhbərləri və Azərbaycanın AŞ PA-dakı nümayəndə heyəti ilə görüşlər keçiriləcək.

## Nazir müavini məhkəmə hakimlərinin daha yüksək maaş alması təkliflərinə münasibət bildirdi

**Ədliyyə nazirinin müavini Azər Cəfərov Azərbaycanda məhkəmə hakimlərinin daha yüksək maaş alması ilə bağlı təkliflərə münasibət bildirib.**



"Trend"in məlumatına görə, A.Cəfərov deyib ki, "Məhkəmələr və hakimlər haqqında" qanuna təklif edilən dəyişikliyə əsasən, hakimlərin maaşı müəyyən qədər artırılır. Nazir müavinin sözlərinə görə, Azərbaycan hökuməti bu cür addımları mütəmadi atır: "Təbii ki, bu, imkandan asılı olan məsələdir. Yəni ölkənin iqtisadiyyatı inkişaf etdikcə, belə məsələlərə baxılacaq".

## Azərbaycanla Aİ arasında "yeni nəsil" tərəfdaşlıq sazişi hazırlanır

**Azərbaycan Avropa İttifaqının mühüm tərəfdaşıdır. "Trend"in məlumatına görə, bunu Avropa İttifaqının (Aİ) və Avropa Şurasının Birgə Proqramı olan "Azərbaycanda məhkəmə sisteminin səmərəliliyinin və keyfiyyətinin artırılması" adlı yeni layihənin təqdimat konfransında Avropa İttifaqının Azərbaycandakı səfiri Kestutis Yankauskas deyib.**



O qeyd edib ki, hazırda Azərbaycanla Aİ arasında yeni tərəfdaşlıq sazişi ilə bağlı danışıqlar aparılır.

Səfirin sözlərinə görə, bu sazişi yeni nəsil saziş adlandırmaq olar: "Çünki bizim hazırkı münasibətlərimizin əsasları 90-cı illərin ortalarında yaranıb və təbii ki, bu əsasların yenilənməsinə ehtiyac var. Belə ki, hər iki tərəf bu tərəfdaşlığı inkişaf etdirmək istəyir və bunun üçün müasir, möhkəm və yenilənmiş əsaslar lazımdır". K.Yankauskas bildirib ki, yeni tərəfdaşlıq sazişi ilə bağlı danışıqlarda irəliləyişlər əldə olunmaqdadır.

# Azərbaycan və Belarus prezidentləri arasında telefon danışığı olub

**Prezident İlham Əliyev iyulun 2-də Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkoya zəng edib.**



Prezident İlham Əliyev Belarus Prezidentini ikinci Avropa Oyunlarının yüksək səviyyədə təşkili və Belarus idmançılarının bu yarışlarda qazandığı uğurlar münasibətilə təbrik edib. Dövlət başçısı, eyni zamanda, Aleksandr Lukaşenkoya Belarus Respublikasının milli bayramı - Müstəqillik günü münasibətilə təbriklərini çatdırıb, Belarus xalqına tərəqqi və firavanlıq arzulayıb.

Belarus Prezidenti Aleksandr Lukaşenko təbriklərə və xoş sözlərə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Dövlət başçıları ölkələrimiz arasında ikitərəfli dostluq münasibətlərinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliklərini bildirib və əlaqələrimizin perspektivləri ilə bağlı fikir mübadiləsi aparıblar.

# Mətbuat Şurası Qusarda tanınmış jurnalistlə bağlı sənədli filmin təqdimatını keçirdi

**Qusar rayonunun Heydər Əliyev Mərkəzində Azərbaycan Mətbuat Şurasının təşəbbüsü ilə ərsəyə gəlmiş, tanınmış jurnalist və publisist Nəbi Rzayevin həyatından bəhs edən "Yaşamaqdan doymayanlar" sənədli filminin təqdimat mərasimi keçirilib.**



Toplantını giriş sözü ilə Qusar Rayon İcra Hakiiyyəti başçısının müavini Elman Mustafayev açaraq, Qusarda yaşamış və fəaliyyət göstərmiş jurnalist N.Rzayevin rayonun tanınmış ziyalılarından, söz adamlarından biri olduğunu vurğulayıb. N.Rzayevi peşəsi üçün fədakarlıq nümunəsi kimi dəyərləndirən E.Mustafayev bildirib ki, mərhum jurnalistin həyat və yaradıcılığından bəsh edən sənədli film onun ruhuna olan böyük ehtiram, əməyinə verilən müstəsna qiymətdir. O, ekran işinin ərsəyə gəlməsinə kömək göstərənlərə təşəkkürünü bildirib.

Azərbaycan Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov rəhbərlik etdiyi qurumun ömrünü-gününü jurnalistika peşəsinə, söz sənətinə sərf etmiş qələm adamları ilə bağlı sənədli filmlər çəkdiyini diqqətə çatdırıb. Bu baxımdan o, Qusar torpağının yetirməsi olan N.Rzayevlə bağlı ekran işinin də kifayət qədər uğurlu alındığına əminliyini ifadə edib. "Belə düşünmək üçün əsaslarımız var. Çünki Nəbi Rzayevin həyatı həqiqətən də örnəkdir. Məhdud fiziki imkanlarına və hər zaman Qusarda - şəhər mühitindən kənarda yaşamasına baxmayaraq, Nəbi bütün stereotipləri alt-üst etmiş şəxsiyyət idi. O, istedadın necə böyük qüvvə olduğunu, heç bir sərhəd tanımadığını isbatlaya bilmişdi. Oçerkləri, məqalələri, esseləri bu dəyərli qələm sahibini respublikaya sevdirmişdi. Neçə-neçə sənət adamları, xalq artistləri, əməkdar artistlər Qusara gələrkən hər zaman Nəbi Rzayevi ziyarət edirdilər. Belə bir ehtiramı jurnalistə sənəti qazandırmışdı. Sənətini hədsiz sevirdi. Nəbi həyatı, yaşamağı da inanılmaz coşğu və ruh yüksəkliyi ilə sevirdi. Hesab edirəm ki, təqdimatına toplaşdığımız bu sənədli filmdə bunu göstərə bilmişik", - deyən Ə.Amaşov tədbirin təşkilinə həssas yanaşıldığı üçün Qusar Rayon İcra Hakimiyyəti rəhbərliyinə təşəkkürünü bildirib.

Çıxışlardan sonra "Yaşamaqdan doymayanlar" sənədli filmi nümayiş olunub. Qeyd edək ki, N.Rzayev Qusar rayonunun Həsənqala kəndində anadan olub. Uşaq vaxtı düzgün edilməyən müalicədən sonra ömrünün axırınadək əlil həyatı yaşayıb. Buna baxmayaraq Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini bitirib. Ömrünün sonunadək Qusarda yaşayıb.

Məqalələri, oçerkləri və hekayələri ölkənin ən nüfuzlu mətbuat orqanlarında işıq üzü görüb. Yaradıcılığı ona bütövlükdə Azərbaycan cəmiyyətində, sənət cameəsində hədsiz populyarlıq qazandırıb. "Yaşamaqdan doymayanlar" sənədli filmində bu kimi məqamlardan, eyni zamanda N.Rzayevin ömür-gün yoldaşı Nazilə xanımın fədakarlığından söz açılır.

**Onu da qeyd edək ki, "Yaşamaqdan doymayanlar" sənədli filminin ssenari müəllifi tanınmış jurnalist və publisist Bəxtiyar Qaraca, rejissoru Kəmalə Mirzəyeva, operatoru Rüstəm Paşadır.**

## Ərdoğan Çində Pekini Londonla birləşdirən Bakı-Tiflis-Qarsdan danışdı

**Bakı-Tiflis-Qars (BTQ) dəmir yolu ən mühüm nəqliyyat layihələrindən biridir. "Trend"in məlumatına görə, bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Çinə səfəri zamanı deyib.**

Türkiyəli liderin sözlərinə görə, BTQ və bütün digər nəqliyyat marşrutları Pekini Londonla birləşdirir ki, bu da bir daha bu layihələrin əhəmiyyətini sübut edir.

Xatırladaq ki, Bakı-Tiflis-Qars dəmir yolunun açılış mərasimi 2017-ci il oktyabrın 30-da Bakı Beynəlxalq Dəniz Ticarət Limanında keçirilib.

Qeyd edək ki, ilkin mərhələdə Bakı-Tiflis-Qars dəmiryolu ilə yükdaşımanın həcmi 6,5 milyon ton yük səviyyəsində olacaq, həmçinin 1 milyonadək sərnişin daşınacaq.

# Media rəhbərlərinin Moskva görüşləri Rusiya-Azərbaycan münasibətlərinə ziyan vurmaq istəyənlərin cəhdlərini xeyli neytrallaşdıra bilər

**Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) təşkilatçılığı ilə respublikanın aparıcı KİV təmsilçilərindən ibarət 12 nəfərlik nümayəndə heyətinin Rusiya Federasiyasının paytaxtı Moskva şəhərinə səfər proqramı başlayıb.**

Nümayəndə heyətinin Rusiyanın jurnalist təşkilatları və aparıcı KİV redaksiyalarında görüşləri nəzərdə tutulub.

Səfər proqramı iyulun 1-də başlayıb və ilk görüş Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı səfirliyində keçirilib. Səfir Polad Bülbüloğlu nümayəndə heyətini salamlayaraq, Azəbaycanın aparıcı KİV qurumlarının Rusiya Federasiyasına səfər proqramını müsbət dəyərləndirdiyini bildirib. O, iki ölkənin KİV qurumlarının əlaqələrinin güclənməsinin hər iki ölkənin maraqlarına xidmət etdiyini vurğulayıb. Səfir Azərbaycan və Rusiyanın müştərək maraqlarına xidmət edən proqramlar barədə də məlumat verib. Bu proqramların reallaşması üçün medianın dəstəyinin mühüm əhəmiyyət daşıdığını diqqətə çatdırıb və Azərbaycan media təmsilçilərinin Moskvaya səfərlərinin bu yöndə ciddi önəm daşıdığını vurğulayıb.

KİVDF-nin icraçı direktoru, səfər qrupunun rəhbəri Vüqar Səfərli KİV təmsilçilərinin Moskvaya səfərinin məqsədi, həmçinin, Azərbaycanda KİV-in durumu və KİVDF-nin fəaliyyəti barədə məlumat verib. V.Səfərli Rusiya - Azərbaycan media təmsilçilərinin sıx təmaslarının zəruri olduğunu, bunun üçün həm Rusiya, həm də Azərbaycan dövlətinin dəstəyinin önəmini vurğulayıb. Səfir P.Bülbüloğlu iki ölkə KİV-inin təmaslarının gücləndirilməsi üçün səlahiyyətləri çərçivəsində bütün dəstəyi verməyə hazır olduğunu qeyd edib.

Nümayəndə heyətinin növbəti görüşü İTAR-TASS İnformasiya Agentliyində keçirilib. Nümayəndə heyətinin üzvləri öncə agentliyin iş mühiti ilə tanış olublar. Daha sonra baş redaktor Maksim Filimonovla görüş keçirilib. Səmimi diskussiya şəraitində keçirilən görüşdə tərəflər qarşılıqlı maraqları və əlaqələrin inkişafı üçün fikirlərini çatdırıblar.

Məlumat üçün bildirək ki, nümayəndə heyətinin tərkibinə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru V.Səfərli, "Xalq qəzeti"nin baş redaktoru, KİVDF-nin Müşahidə Şurasının sədri Həsən Həsənov, "Trend" İnformasiya Agentliyinin baş direktoru İlqar Hüseynov, "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev, Jurnalistlərin Həmkarlar İttifaqının sədri, Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli, "Bakı-Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev, "Bakinskiy raboçiy" qəzetinin baş redaktoru Rəhman Hacıyev, Azərbaycan Televiziya və Radio Verilişləri QSC-nin sədr müavini Rəşad Nəsirov, "AzərTAC" İnformasiya Agentliyinin redaksiya müdir müavini Əziz Məmmədov, "Novoye vremya" qəzetinin baş redaktoru Şakir Ağayev, "Kaspiy" qəzetinin baş redaktoru İlqar Hüseynov daxildirlər.

## *Azər Həsrət: "Media səviyyəsində münasibətlərin qurulması həm də ölkələrimiz arasındakı əlaqələrin inkişafına da müsbət təsir edəcək"*



Azərbaycan media rəhbərlərinin Moskvaya səfəri Rusiya ilə münasibətlərin indiki mərhələsində hansı rolu oynayacaq?

**Media məsələləri üzrə ekspert Azər Həsrət "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, belə bir səfərin təşkil olunması çox önəmlidir:** "Azərbaycan media təmsilçilərinin Rusiya ilə əlaqələrinin intensivləşdirilməsinə ciddi ehtiyac var. Bilirsiniz ki, Rusiya mediasında bizə nisbətdə ermənilər daha çox təmsil olunurlar. Onlar bu amildən sui-istifadə edib, anti-Azərbaycan təbliğatına dəstək verirlər. Buna görə də düşünürəm ki, media təmsilçilərimizin Rusiyaya səfərlərinin, ümumiyyətlə, intensivləşməsinə ehtiyac var. Əlaqələri daha da dərinləşdirmək lazımdır. KİDF-nin təşkil etdiyi bu səfəri şəxsən alqışlayıram. Arzu edərdim ki, ora getmiş həmkarlarımız geri qayıdanda Rusiyanın KİV-i ilə hansısa sazişlər, razılaşmalar əldə etsinlər. Heyətə baxıram, orada çox təcrübəli və tanınmış jurnalistlərimiz iştirak edirlər. İstərdim ki, həmin adamlar öz qələmlərinin gücünü həm də Rusiyada sınasınlar. Düşünürəm ki, bunun üçün Rusiyada şərait yaratmağa hazır olan KİV az deyil. Sadəcə, həmin əlaqələrin qurulması və davam etdirilməsi lazımdır. Hesab edirəm ki, KİVDF xətti ilə Rusiyaya səfərlər ildə bir neçə dəfə gercəkləşdirilərsə, faydalı olar. Rusiya bizim üçün önəmli ölkədir. Media səviyyəsində münasibətlərin qurulması həm də ölkələrimiz arasındakı əlaqələrin inkişafına da müsbət təsir edəcək. Bu münasibətlərə xələl gətirmək istəyən qüvvələrin səylərinin neytrallaşmasına böyük töhfə verəcək".

***Məhəmmədəli QƏRİBLİ***

# Son bir neçə ayda ermənilərin sülh prosesinə əsas təxribat tezisləri və əməlləri...

**Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında iyunun 20-də keçirilən Vaşinqton görüşündən bir müddət ötməsinə baxmayaraq, hələ də münaqişənin həlli üçün ümidverici situasiya yetişməyib. Məsələ ondadır ki, Azərbaycan tərəfinin səylərinə baxmayaraq, hələ də Ermənistan tərəfi konstruktiv danışıqlara getməyə və münaqişənin sülh yolu ilə həllində maraqlı deyil.**



Müxtəlif vasitələrlə bəhanələr uydurur və təxribatlara əl atır. Halbuki, Düşənbədə əldə olunan razılığa əsasən, tərəflər təmas xəttində sabitliyi təmin etməli idilər. Ancaq Ermənistan tərəfi buna əməl etmək istəmir.

Vaşinqton görüşündən əvvəl qoşunların təmas xəttində ermənilərin təxribatı nəticəsində Azərbaycan zabiti şəhid oldu. Daha sonra iyunun 9-da da şəhid verdik. Vaşinqtonda görüş keçirilən zaman da əsgərimiz şəhid edildi. Bununla belə, Ermənistan silahlı qüvvələri işğal olunmuş ərazilərimizdə genişmiqyaslı hərbi təlimlər keçirməyə başladı. Başqa bir tərəfdən, Füzuli istiqamətində təlim uçuşları keçirən Azərbaycanın aviasiya vasitələrinə uğursuz hücum cəhdi oldu.

Bir sözlə, həmsədrlər Bakıya gələn gün Ermənistan hərbçimizi şəhid etdi, Vaşinqton görüşü vaxtı başqa bir əsgərimiz düşmən təxribatı nəticəsində şəhid oldu. İndi də deyirlər ki, atəşkəsin pozulması ilə eyni vaxtda sülh danışıqları aparmağın mənası yoxdur və s. Bütün bu addımlar Qarabağ sülh prosesinə dağıdıcı təsir göstərir. O baxımdan yaranan belə mürəkkəb vəziyyəti ekspertlər necə şərh edirlər?

## *Elman Nəsirov: "Paşinyan hökuməti də Sarkisyan hökuməti kimi çalışır ki, hər vəchlə danışıqlardan yayınsın"*

**Məsələyə münasibət bildirən millət vəkili Elman Nəsirovun sözlərinə görə, Ermənistanın yeni rəhbərliyinin münaqişənin tənzimlənməsi ilə bağlı tutduğu mövqe, əslində, öz sələflərinin mövqeyindən fərqlənmir:** "Paşinyan hökuməti də Sarkisyan hökuməti kimi çalışır ki, hər vəchlə danışıqlardan yayınsın. Görəndə ki, danışıqlar labüddür və yayınmaq mümkün deyil, o zaman cəbhə xəttində təxribatlara əl atırlar. Sonuncu dəfə bir helikopter avantürasına da əl atdılar. Məqsəd odur ki, bu metodlarla danışıqlar pozulsun. Yaxud da danışıqlar baş tutsa belə, fundamental məsələlər kənarda qalsın və yalnız danışıqların bərpa edilməsi ilə bağlı müzakirələr getsin. Bu, ermənilərin ənənəvi taktikasıdır. Xüsusilə də bu gün Ermənistanda daxili vəziyyət kifayət qədər gərginləşməkdədir. Əslində, bu gün Ermənistanda iki tərəf bir-birinə qarşı müharibə elan edib.

*"Görəndə ki, danışıqlar labüddür və yayınmaq mümkün deyil, o zaman cəbhə xəttində təxribatlara əl atırlar"*

Bir tərəfdə hakimiyyətdə olan Paşinyanın komandası, digər tərəfdə isə "Qarabağ kalanı" və onun əsas liderləri Köçəryan, Sarkisyan, Saakyan, Qukasyan. Bu mübarizə kim-kimi prinsipi üzrə gedir. Ya Paşinyan onlara qalib gəlib hakimiyyətini gücləndirəcək, ya da onlar revanş götürüb yenidən hakimiyyəti qəsb edəcəklər. Diqqətdən yayınmayan cəhət odur ki, bu reallıqda tərəflər bir-birini ən çox Qarabağ məsələsində xəyanətdə ittiham edirlər. Məsələn, "Qarabağ klanı" bəyan edir ki, Paşinyan yaxın zamanlarda münaqişə ilə bağlı məsələlərdə çox böyük güzəştə gedəcək. Bununla da Ermənistanın milli maraqlarına zərbə endirəcək. Eyni məntiqlə də Paşinyan "Qarabağ klanı"nı ittiham edir. Bildirir ki, təmas xəttində xəyanətə imza atacaqlar ki, bütün məsuliyyət Paşinyanın üstündə qalsın. Belə vəziyyət danışıqların uzanmasına səbəb olur".

E.Nəsirovun fikrincə, Paşinyan çox gözəl dərk edir ki, Qarabağ münaqişəsi həll edilməsə, Ermənistanın gələcəyi yoxdur: "Ermənistan iqtisadi-siyasi böhrandan çıxa bilməyəcək. Ancaq vəziyyət elə gətirib ki, Paşinyan bu məsələdə azca konstruktiv mövqe ortaya qoyan kimi, onu xəyanətdə ittiham edirlər. Beləcə, faktiki olaraq, bu gün Ermənistanda daxili gərginlik, hakimiyyət uğrunda mübarizə Qarabağ məsələsinə də çox ciddi təsir göstərir. Ona görə də aprelin 15-də Moskvada keçirilən xarici işlər nazirlərinin görüşü, 20 iyun Vaşinqton danışıqları bir danışıqlar olaraq tarixə düşdü, amma konkret real nəticələr yoxdur. Ancaq Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin bu məsələlərlə bağlı konkret mövqeyi var. O da ondan ibarətdir ki, münaqişənin tənzimlənməsində ərazi bütövlüyü əsas məsələdir. Heç bir zaman ərazi bütövlüyü məsələsi danışıqların predmeti olmayıb və bundan sonra da olmayacaq".

***Vidadi ORDAHALLI***

# Polis daha bir ildönümünü arxada qoydu - Azərbaycanda pozulmaz polis-sabitlik tandemi...

**Müstəqil dövlətimizin mühüm atributlarından, əsas sütunlarından olan Azərbaycan polisinin 101 yaşı tamam oldu. Məlumat üçün bildirək ki, 101 il bundan əvvəl ölkəmizdə ilk polis bölüyü 1918-ci il iyulun 2-də Azərbaycan Xalq Cümhuriyyəti dövründə cinayətkarlıqla mübarizə aparmaq və ictimai təhlükəsizliyi təmin etmək məqsədilə yaradılıb.**

Azərbaycan polisinin fəaliyyəti tariximizin qədim dövrünə təsadüf edib. Həmin vaxtlar xanlıqlarda xüsusi səlahiyyətlərlə fəaliyyət göstərən darğalar, Çar Rusiyası dövründə müəyyən polismeyster idarələri, Bakı Şəhər Upravasının polisi, Bakı xüsusi vergi polisi, xəfiyyə polisi, Gəncə, Zəngəzur, Şuşa, Cavad və sair qəzaların polis idarələri mövcud olub. 1920-ci ilin aprelində bolşevik Rusiyası ölkəmizi işğal edir və Azərbaycanda sovet hakimiyyəti qurulur. Sovet Azərbaycanının ilk daxili işlər naziri Həmid Sultanov təyin edilir. Pristavları komissarlar əvəzləyir, polisin adı dəyişdirilərək milis adlandırılır.

1998-ci ildən etibarən iyulun 2-si sabiq prezident Heydər Əliyevin fərmanı ilə Azərbaycan daxili işlər orqanları əməkdaşlarının peşə bayramı günü kimi qeyd olunur.

**101 yaşlı Azərbaycan polisinin ildönümü münasibətilə fikir bildirən millət vəkili Aydın Mirzəzadə qeyd etdi ki, Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən, xüsusən də mərhum prezident Heydər Əliyev hakimiyyətə gəldikdən sonra daxili işlər orqanlarının fəaliyyətinin yenidən qurulması sahəsində çox böyük işlər görüldü.** Avropa təcrübəsi öyrənildi və müharibə şəraitində yaşamağımıza baxmayaraq, daxili stabillik təmin edildi və bu gün də qorunur. Ona görə də biz bu gün rahat şəkildə deyə bilərik ki, Azərbaycan nəinki MDB məkanında, hətta dünyada kriminal vəziyyətin ən aşağı səviyyədə olduğu ölkələrdən biridir: "Bu, məhz Azərbaycan polisinin xidməti nəticəsində mümkün olub. Azərbaycan polisi vətəndaşın təhlükəsizliyini, sakit həyat yaşamasını təmin edir və cəmiyyətdə kriminal hadisələrin baş verməsinin qarşısını alır. Ölkəmizdə mütəşəkkil cinayətkar dəstələr yoxdur. İnsanların həyatına heç bir ciddi təhdidlər qeydə alınmır. Eyni zamanda, törədilən cinayətlərin də üstü operativ şəkildə açılır. Uzun müddətdir Daxili İşlər Nazirliyinə rəhbərlik etmiş general-polkovnik Ramil Usubovun Təhlükəsizlik Şurasına katib təyin olunmasını Azərbaycan polisinin peşəkarlığı, dövlətçiliyə xidməti və vətəndaşın hüquqlarının qorunmasında göstərdiyi xidmətin dəyəri kimi qiymətləndirirəm. Bu gün polis orqanlarında Azərbaycan xalqının dəyərli oğulları xidmət edirlər. Xalqımız öz polisi ilə fəxr edir, ona güvənir. Bu gün rahat şəkildə deyə bilərik ki, Azərbaycan nəinki MDB məkanında, hətta dünyada kriminal vəziyyətin ən aşağı səviyyədə olduğu ölkələrdən biridir".

Həmsöhbətimiz onu da vurğuladı ki, 1918-ci ildə Azərbaycan xalqı müstəqil dövlətini yaratdıqdan sonra bir çox dövlət atributlarının, o cümlədən, polisin yaradılması barədə qərar verilib: "Azərbaycan polisi 23 ay ərzində Azərbaycan Xalq Cümhuriyyətində (AXC) ictimai asayişin qorunmasında böyük işlər görüb. Baxmayaraq ki, bu müddətdə dövlətçilik təcrübəsi az idi və Ermənistan tərəfindən ərazilərin tutulması üçün hücumlar olurdu, müharibə gedirdi. Bununla belə, ictimai asayiş qorunurdu. Həmin dövrün DİN rəhbərləri Azərbaycan tarixində dövlətçiliyə şərəflə xidmət edən insanlar kimi qalıblar. Azərbaycan müstəqilliyini itirdikdən sonra isə məhdud muxtariyyətə baxmayaraq, həmin dövrdə sovet milisinin tərkibində Azərbaycan milisi ictimai asayişin qorunmasında, xalqın dinc yaşayışının təmin olunmasında böyük rol oynayıb. Həmin dövrdə daxili işlər orqanları rəhbərləri əsasən, qeyri-azərbaycanlılardan ibarət idi. Ona görə də azərbaycanlılara qarşı çox böyük təzyiqlər olurdu. Bununla belə, milis orqanlarında çalışan azərbaycanlılar xalqımızın təhlükəsizliyinin və mənəvi dəyərlərinin qorunmasında böyük xidmətlər göstəriblər".

**"Polisə Yardım" İctimai Birliyinin rəhbəri Şəmsəddin Əliyev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, Azərbaycan polisinin bünövrəsi Cümhuriyyət dövründə qoyulub:** "Azərbaycan polisi bir əsr müddətində püxtələşib. Azərbaycan polisinin cinayətkarlıqla mübarizə fəaliyyəti ilə bağlı yaddaqalan xatirələri var. Təbii ki, cinayətkarlığın kökünü kəsmək mümkün deyil. Bütün cəmiyyətlərdə cinayətkarlıq olur, sadəcə, onunla mübarizə hər bir dövlətdə fərqlidir. Ötən illər ərzində Azərbaycan polisinin topladığı təcrübə sayəsində cinayətkarlıqla mübarizə qısa zamanda açılır. İl ərzində 26-27 min cinayət hadisəsi qeydə alınır, ancaq onun 86-87 faizi açılır. Vətəndaşlara bəlli olmayan cinayətlər Azərbaycan polisi tərəfindən açılır. Bu, MDB ölkələrində qazanılmayan uğurdur. Eyni zamanda, ölkə əhalisinin sayına görə cinayət hadisələrinin sayında Avropa ölkələrindən ön sırada dayanır. Azərbaycan polisinin səyi nəticəsində ölkəmizin cinayətkarlıq səviyyəsinə görə Avropa ölkələrindən seçilməsinə görə həm ölkə əhalisi, həm də dövlətimiz polisimizlə qürur duya bilər".

Həmsöhbətimiz onu da vurğuladı ki, Azərbaycan polisinin cəmiyyətlə sıx təmasda olmasından qürur duyur: "Cəmiyyətin təhlükəsizliyini təmin etmək, ictimai asayişi qorumaq, sabitliyin dayanıqlı olmasını arzu ediriksə, mütləq mənada polislə birgə addımlamaq lazımdır. Nəzərə almaq lazımdır ki, harada cinayət hadisəsi qeydə alınırsa, polis ordadır. Bu hal hər kəs üçün xeyirlidir.

Bu gün Azərbaycanda daxili sabitlik, təhlükəsizlik yüksək səviyyədə təmin olunur. Öz adımdan Azərbaycan polisini təbrik edirəm. Başda cənab nazir Vilayət Eyvazov olmaqla, bütün kollegiyanın üzvlərini təbrik edirəm".

**Bakı şəhər Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polkovnik Vaqif Əsədov Azərbaycan polisinin bu günə kimi əldə etdiyi uğurlardan bəhs edib.** O, ilk növbədə, Azərbaycan polisinin yaranmasının 101 ili, peşə bayramı münasibətilə bütün həmkarlarını təbrik edib: "Bu gün Azərbaycan cəmiyyəti onun polisinə inanıb arxalanırsa, təhlükəsiz, rahat hərəkət edirsə, polisin fəaliyyəti deməkdir. Hər bir polis əməkdaşına xidmətində uğurlar arzu edirəm. Polisin xidmətinə cəmiyyət qiymət verir, hər bir polis əməkdaşının xidmət etdiyi ərazidə təhlükəsizlik təmin edilirsə, asayiş qorunursa, dövlət, vətən qarşısında xidməti yerinə yetiririksə, bu elə bizim fəaliyyətimiz deməkdir.



*Aydın Mirzəzadə: "Azərbaycan polisi vətəndaşın təhlükəsizliyini, sakit həyat yaşamasını təmin edir"*

*Şəmsəddin Əliyev: "...həm ölkə əhalisi, həm də dövlətimiz polisimizlə qürur duya bilər"*

*Vaqif Əsədov: "Bu gün Azərbaycan cəmiyyəti onun polisinə inanıb arxalanırsa, təhlükəsiz, rahat hərəkət edirsə, polisin fəaliyyəti deməkdir"*

Bu gün bütün sahələrdə uğurlar qazanmış polisin bir fəaliyyəti olan yol polisi də xeyli uğurlu nəticələr əldə edib. Elə təkcə onu demək kifayətdir ki, Bakı şəhəri üzrə qeydə alınan yol-qəza hadisələrinin azalması, ölüm faktlarının aşağı düşməsi, eyni zamanda, müsbət dinamika üzrə hərəkət etməsi Bakı Şəhər Dövlət Yol Polisinin uğuru sayılır. Baxmayaraq ki, ölkə üzrə gətirilən nəqliyyat vasitələrinin sayı, sürücülərin sayı artır, küçə və yolların müasir səviyyəyə gətirilməsi davam etdirilir, sürət həddi artırılır, yol birləşmələri, kəsişmələri, körpü və tunellərin istifadəyə verilməsi kimi yeniliklər yol-qəza hadisələrinin olmasına zəmin yaradır. Amma bu günədək yol polisinin məqsədli şəkildə keçirdiyi tədbirlər, eyni zamanda, "Yol hərəkəti haqqında" Qanuna və İnzibati Xətalar Məcəlləsinə edilən əlavə və dəyişikliklər, polisin fəaliyyəti ilə bağlı tətbiq edilən müasirlik və yeni texnologiyalar, bütövlükdə, polisin fəaliyyətinə təsir edən bu müsbət göstəricilər nailiyyət əldə etmək üçün bir stimuldur. Bundan sonra da insanların təhlükəsizliyini təmin etmək bizim funksional borcumuz olacaq".

*Günel CƏLİLOVA*

**Rusiyalı ekspert, Moskvada yerləşən Avrasiya İqtisadi İnstitutunun direktoru Vladimir Lepexinin fikrincə, həmsədr ölkələrdən yalnız Rusiya münaqişənin həllində maraqlıdır: "ATƏT-in Minsk Qrupu danışıqların əsas formatı olmalı deyil. Çünki Rusiyadan başqa, orada heç bir ölkə münaqişənin həllində maraqlı deyil. Minsk Qrupunun əsas təklifi bölgədə BMT və NATO-nun sülhməramlılarının yerləşdirilməsidir".**

# Rusiya institut rəhbərindən Qarabağ probleminin həlli üzrə yeni format təklifi...

### *Hatəm Cabbarlı: "Bu, bölgənin təhlükəsizliyini ciddi zədələyə bilər"*



Rusiyalı ekspert münaqişədə format dəyişikliyinin vacib olduğunu bildirib: "Regionda baş verən dəyişiklikləri nəzərə alsaq, Türkiyə və İran özləri haqda önəmli mesajlar verdilər. Hazırda regional təhlükəsizlik İran, Türkiyə və Rusiyadan asılıdır. Ona görə münaqişənin həllini bu ölkələrin vasitəçiliyində görmək lazımdır. Türkiyə Azərbaycanla bağlı razılaşmaların, Rusiya isə Ermənistanla bağlı razılaşmaların təminatçısı olacaq".

Göründüyü kimi, Rusiyadan olan ekspert münaqişənin tənzimlənməsi ilə bağlı formatın Rusiya-İran-Türkiyə kimi təsbit olunmasında maraqlıdır. Bu təkliflə bağlı ekspertlər nə düşünürlər?

**Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, son zamanlar dünyada baş verən proseslərin fonunda rusiyalı institut rəhbərinin verdiyi açıqlama olduqca maraqlıdır:** "Həmin bəyanatın əsas məğzi Dağlıq Qarabağ probleminin həlli istiqamətində fəaliyyət göstərən ATƏT-in Minsk Qrupunun formatının dəyişməsidir. Lepexin, eyni zamanda, qeyd edir ki, həmsədrlərdən biri olan Rusiya problemin həlli istiqamətində digər həmsədr ölkələrdən daha aktiv fəaliyyət göstərir. ATƏT-in Minsk Qrupunun formatının dəyişməsi ilə bağlı Azərbaycan da dəfələrlə öz istəyini bəyan edib. Amma bu günə qədər bu formatın dəyişməməsinin obyektiv səbəbləri olub. Lepexin bununla bağlı konkret ölkələrin adını da çəkir. Türkiyə və İranın ön plana çıxarılması maraqlıdır. Bu heç də o demək deyil ki, bu üç dövlət bölgədə təhlükəsizlik mühitinə tam hakimdirlər. Bu məsələdə ABŞ və Avropanın maraqlarını kiçiltmək olmaz. Əslində, Lipexinin belə bir bəyanat verməsi qəribədir. Çünki orada mənim razılaşmadığım bəzi nöqtələr var. Postsovet coğrafiyasında yaşanan etnik problemlərin həll olunmasında biz fərqli mənzərəni görürük. Dağlıq Qarabağla bağlı yaradılan Minsk Qrupu formatı 30 ilə yaxındır heç bir iş görə bilmir. Sanki bu təsisat Dağlıq Qarabağ probleminin həll edilməməsi üçün yaradılıb. Burada Rusiyanın yaxasını kənara çəkmək lazım deyil. Həmsədr ölkələrin laqeydlik dərəcəsi eynidir. Düşünün ki, problem həll edildi. Bölgədəki təhlükəsizlik mühitində yeni bir dövr yaşandı. Bu zaman hər üç həmsədr Azərbaycan və Ermənistan üzərindəki təzyiq mexanizmini itirir. Rusiya silah satışına görə iki mühüm silah alıcısını itirir. Bundan başqa, Rusiyanın Ermənistandakı maraqları da zədələnə bilər. Çünki problem həll edildikdən sonra Azərbaycan və Ermənistan Avropaya doğru yön götürə bilər. Müharibəyə xərclənən və heç bir faydası olmayan maliyyə iqtisadiyyata sərf edilər. Bu baxımdan da Rusiyanın problemin həllində səmimi olduğunu söyləmək olduqca çətindir. Bəli, razıyam ki, kilid ölkə kimi Rusiyanın problemə təsiri var. Amma Rusiya səmimi olarsa, burada irəliləyişə nail olarıq. ATƏT-in Minsk Qrupu həmsədrlərinin İran və Türkiyə ilə əvəz edilməsi istiqamətində bir təşəbbüs ortaya qoyularsa, bu, bölgənin təhlükəsizliyini ciddi zədələyə bilər. Lipexin deyir ki, İran Ermənistanın, Türkiyə isə Azərbaycanın təminatçısı olar. Belə başa düşülür ki, Rusiya hər iki ölkə üçün təminat verə bilər.

*"Səslənən təklifin reallaşacağı mümkün sayılmır"*

Bu, əlbəttə, siyasi və təbliğat xarakterli bəyanatdır. Yaxşı olar ki, gələn təklifə ABŞ-la Rusiya arasındakı problemlərdən qaynaqlanan bir fikir kimi baxaq. Beynəlxalq şərait Lipexinin bu təklifinin keçərli olmadığını ortaya çıxarır. Çünki digər həmsədrlər və dünya gücləri bunda maraqlı deyillər. Bu baxımdan da səslənən təklifin reallaşacağı mümkün sayılmır".

***Məhəmmədəli QƏRİBLİ***

**Ermənistanın Baş naziri Nikol Paşinyan iyulun 1-də Amerikanın Qlendeyl şəhərinin meri Ara Nacaryanı qəbul edib. Erməni mətbuatının yazdığına görə, Paşinyan onunla görüşündə bildirib ki, Ermənistan diaspora əlaqələri gücləndirməlidir. Paşinyan ölkədəki siyasi dəyişikliklər şəraitində diaspora əlaqələr qurmaq üçün yeni imkanlar açdığını qeyd edib.**

# Paşinyan ABŞ-dan olan şəhər meri ilə Ermənistan-Amerika münasibətlərini gizli müzakirə edib...

### *Məhəmməd Əsədullazadə: "Hesab edirəm ki, onun amerikalı merlə görüşməsi heç də ikitərəfli əlaqələrin bərpasına gətirib çıxarmayacaq"*



Öz növbəsində, Nacaryan qeyd edib ki, diaspor yeni Ermənistandan ilhamlanıb. Onun sözlərinə görə, guya Ermənistanda dəyişikliklər nəticəsində xaricdəki ermənilər üçün vətənində yaşamaq və işləmək üçün lazımi şərait yaradılıb. O hesab edir ki, indi erməni diasporu hökumətə güvənir və Ermənistanın təhlükəsizliyi öz əlindədir.

Məlumatda o da qeyd olunur ki, görüş zamanı Paşinyanla Nacaryan Ermənistanın gələcəyini, Ermənistan-diaspor münasibətlərinin gücləncəyinə dair məsələləri müzakirə ediblər. Bütün bunlara rəğmən, belə bir ehtimal var ki, erməni merlə Paşinyan qapalı şəkildə Amerika ilə necə yaxınlaşmaq və ölkədə Rusiyanın maraqlarını sıxışdırmaq yollarını müzakirə ediblər. Nəzərə alsaq ki, sözügedən görüş qapalı şəraitdə keçirilib, o zaman bu istiqamətdə tərəflər arasında müzakirələrin aparılması ehtimalı yüksəkdir.

Maraqlıdır, ekspertlər bu versiyanı necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən politoloq Məhəmməd Əsədullazadə buna bir neçə aspektdən yanaşdı:** "Nikol Paşinyanın apardığı siyasət, demək olar ki, effekt vermir. Çünki iki stulda oturmaqla irəliləyişə nail ola bilməyəcək. Hesab edirəm ki, onun Moskva və Vaşinqton arasında bir il ərzində seçim etməməsi ABŞ-ı məyus edən faktorlardan biridir. Hesab edirəm ki, onun amerikalı merlə görüşməsi heç də ikitərəfli əlaqələrin bərpasına gətirib çıxarmayacaq. Vaşinqtonla əlaqələrin bərpasını ən aşağı kanal vasitəsilə həyata keçirməyə başlayırsa, demək, Paşinyan iqnor edilib. Bu gün inqilabdan ötən il yarım ərzində ölkənin xarici strategiyasında Rusiya ilə əlaqələr daha geniş təsvir olunub. ABŞ-la əlaqələr isə istənilən nəticəyə gətirməyəcək. Qeyd edim ki, ABŞ-ın dəstəyini itirməsi gələcək perspektivdə onun hakimiyyətdən getməsi ilə nəticələnəcək. Vaşinqton bir müddət çalışdı ki, Paşinyanla daha yaxın əlaqələr qursun. Ancaq Paşinyan ona göstərilən etimadı doğrultmadı. Vaşinqton onu Rusiya ilə əlaqələri aşağı səviyyədə təşkil etməyə səsləyir. Nə qədər ki, Paşinyan Rusiya ilə Qarabağ faktoru üzrə əlaqələri yüksək səviyyədə saxlayır, Vaşinqton ona dəstək verməyəcək. Baxın, özünü demokratik inqilabçı elan edən Paşinyanı Ağ Ev rəsmi olaraq ölkəyə dəvət etmir. Halbuki, Gürcüstan və Ukrayna inqilablarının liderləri Ağ Evdə rəsmi qəbulda olublar. Bu onu göstərir ki, ABŞ-ın Paşinyandan gözlədikləri reallaşmayıb".

*"Vaşinqtonla əlaqələrin bərpasını ən aşağı kanal vasitəsilə həyata keçirməyə başlayırsa, demək, Paşinyan iqnor edilib"*

***Vidadi ORDAHALLI***

# Erməni mediası Rusiya-Türkiyə yaxınlaşmasını açıq şəkildə Ermənistana zərbə perspektivi kimi dəyərləndirməyə başlayıb

**Erməni mətbuatının yazdığına görə, regionda vəziyyət sürətlə Ermənistan əleyhinə dəyişməyə başlayır. Bununla bağlı bir sıra arqumentlər irəli sürülüb. Burada, həmçinin, o da qeyd edilir ki, xüsusən də Türkiyə və Rusiya formatında İrəvana təzyiqlər artır. Azərbaycan isə bu münasibətdən istifadə edərək Ermənistanı daha ağır duruma salır.**



## *Ramil Hüseynov: "Ermənilər narahatdırlar ki, Rusiya-Türkiyə yaxınlaşması fonunda Azərbaycan hərbi əməliyyatlara başlayacaq"*

Erməni mətbuatı son illər Rusiya-Türkiyə münasibətlərinin əhəmiyyətli dərəcədə yaxınlaşmasından bərk narahatdır. Osakada böyük 20-lərin toplantısında iştirak edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bəyan etdi ki, iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 78 milyard dollara çatıb. Ərdoğan yaxın illərdə ticarət dövriyyəsinin 100 milyard dollara çatacağını dedi. Reallıq ondan ibarətdir ki, son illər Moskva ilə Ankaranın sürətlə bir-birinə yaxınlaşmasını müşahidə edirik. Nəinki siyasi-iqtisadi, həm də hərbi sahədə yaxınlaşma var. Söhbət S-400 zenit-raket komplekslərinin alınmasından gedir. Ona görə də Ermənistanı yaranmış bu vəziyyət çox narahat edir. Ermənilər görürlər ki, hazırda regionda vəziyyət xeyli dərəcədə dəyişib. Əvvəl Rusiya Ermənistandan bir maşa kimi istifadə edirdisə, indi elə bir situasiya yaranır ki, artıq buna ehtiyac yoxdur.

Bütün bu deyilənlərin fonunda, yaranan vəziyyəti ekspertlər necə dəyərləndirirlər?

**Məsələyə münasibət bildirən VİP-in sədr müavini Ramil Hüseynovun sözlərinə görə, ermənilərin bu məsələdə narahat olması hardasa gözlənilən idi:** "Heç kəsə sirr deyil ki, tarixən ermənilər ruslarla türklər arasında olan ziddiyyətlərdən öz mənafelərinə uyğun istifadə ediblər. Bəzən tarixi şərait elə gətirib ki, Rusiya ermənilərdən türklərə qarşı bir alət kimi istifadə etməkdə maraqlı olub. Ancaq hazırda vəziyyət, bölgədə situasiya dəyişir. Moskva-Ankara yaxınlaşması İrəvanın zərərinə işləyir. Bundan başqa, indiki situasiyada Rusiya-Azərbaycan münasibətləri Moskva ilə İrəvan arasında olan münasibətlərdən daha yaxşıdır. Məlum olduğu kimi, bir il əvvəl Ermənistanda baş verən hakimiyyət dəyişikliyi Rusiyanın maraqlarına uyğun olmadı. Düzdür, Ermənistan iqtisadi baxımdan aşırı dərəcədə Rusiyadan asılı olduğundan, bundan başqa, ölkədə rus hərbi bazaları yerləşdiyi üçün, Paşinyan açıq formada Kremldən imtina edə bilmir. Ancaq reallıq ondan ibarətdir ki, Kreml Paşinyana inanmır. Moskva fərqindədir ki, fürsət yaranan kimi Paşinyan Rusiyadan uzaqlaşmaq xətti tutacaq. Digər tərəfdən, ermənilər narahatdırlar ki, Rusiya-Türkiyə yaxınlaşması fonunda Azərbaycan hərbi əməliyyatlara başlayacaq. Bu zaman Moskva Ankara ilə olan yaxın münasibətləri nəzərə alıb araya girməyəcək. Fikrimcə, ermənilərin əsas narahatlığı bundan qaynaqlanır".

*"Bu zaman Moskva Ankara ilə olan yaxın münasibətləri nəzərə alıb araya girməyəcək"*

***Vidadi ORDAHALLI***

# Rusiyanı AŞPA-dan sona qədər qovmaq istəyən bir neçə ölkə xüsusi demarşa hazırlaşır

**Rusiyanın AŞPA-ya qayıdışı ciddi narazılığa səbəb olub. Artıq bəzi ölkələr buna qarşı çıxmağa hazırlaşırlar. Ukrayna, Polşa, Litva, Latviya, Estoniya, Slovakiya və Gürcüstan Rusiyanın AŞPA-ya qayıdışına qarşı birgə qətnamə layihəsini hazırlayacaqlar. Bu haqda Polşa Senatının marşalı Stanislav Korçevski bildirib.**



## *Yeganə Hacıyeva: "Avropa qurumları anlayırlar ki, Rusiya ilə bir qədər soyuqqanlı davranış lazımdır"*

Xatırladaq ki, AŞPA iyunun 26-da Rusiya nümayəndə heyətinin səlahiyyətlərinin tam miqyasda təsdiqlənməsi ilə bağlı qətnamə qəbul edib. Ukrayna, Polşa, Gürcüstan, Estoniya, Litva, Latviya və Böyük Britaniyanın etirazlarına baxmayaraq, Rusiya Federasiyasının AŞPA-da hüquqları şərtsiz olaraq bərpa olunub.

2014-cü ildə Krımın ilhaqına cavab olaraq Rusiyanın AŞPA-da səlahiyyətləri dondurulmuşdu.

Dövlətlər bu layihəni təqdim etsə, onun hansı perspektivləri ola bilər?

**Beynəlxalq məsələlər üzrə ekspert Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Avropa Şurası, digər beynəlxalq təşkilatlar kimi, çoxmilyardlıq büdcəyə malikdir:** "AŞ siyasət və missiyasına uyğun fəaliyyət strategiyasını həyata keçirmək üçün nəzərdə tutulan bu büdcə bir neçə illik, üzv və ya iştirakçı dövlətlərin ödədiyi üzvlük haqqı ilə və ən əsası, üzv ölkələrə tətbiq olunan fərqli hesablama sistemləri vasitəsilə formalaşdırılır. Ölkələrin ödədiyi üzvlük və ya iştirakçılıq haqları onların makroiqtisadi göstəriciləri, ümumdaxili məhsulunun həcmi və ödəmə qabiliyyəti nəzərə alınmaqla həyata keçirilir.

Rusiya Avropa Şurasının büdcəsinin əsasını formalaşdıran 5 donor ölkədən biridir. Məsələn, Avropa Şurasının 2014-2016-cı illər üçün büdcəsinin əsasını, yəni 57 faizini 5 donor ölkə: Fransa, Almaniya, İtaliya, Rusiya və Böyük Britaniya formalaşdırmışdı. Ukrayna, Polşa, Litva, Latviya, Estoniya, Slovakiya və Gürcüstan AŞ-nın üzvlük haqqını az ödəyən ölkələrdir".

Politoloqun sözlərinə görə, AŞ-nın strategiyası uzun müddətə formalaşdırılır: "Həmin strategiyada Rusiyanın mühüm rolu var. Bəzi reallıqları qəbul etmək lazımdır. Reallıqlardan biri budur ki, Avropanın təhlükəsizliyini Rusiyasız qurmaq mümkün deyil. Rusiya, eyni zamanda, Avropa Şurasının o tip ölkələrindəndir ki, onun Avropa ilə bağlı özünün həyata keçirmək istədiyi layihələri var. Bu siyasətinin həyata keçirilməsində ona qarşı tətbiq olunan sanksiyalar heç bir maneçilik törətmir. Biz bunu bu müddət ərzində gördük. Artıq bəlli olur ki, çox vaxt sanksiyaların tətbiqi effektiv vasitə sayılmır. Hesab edirəm ki, artıq böyük ölkələr bunu anlayıb ki, Rusiyaya yaşıl işıq yandırıblar. Digər ölkələrin Rusiyaya qarşı tərtib edəcəkləri qətnamənin heç bir nəticəsi olan deyil. Çünki Rusiya Avropa Şurasına bütün parametrlərə görə çox lazımdır. Bir faktı da qeyd etməliyik ki, Rusiyanın başlıca problemi Avropa İttifaqı ilədir, Avropa Şurası ilə deyil. Onlar gözləyirdilər ki, Rusiya Krım və Ukraynadakı mövqelərindən geri çəkiləcək.

Ona görə də belə vasitələrlə ona təzyiq edirdilər. Bu səmərə vermədi. Avropa qurumları anlayırlar ki, Rusiya ilə bir qədər soyuqqanlı davranış lazımdır. Onunla sərt rəftarın daha çox ziyanı Avropanın özü görə bilər".

***Məhəmmədəli QƏRİBLİ***

# Erməni mediasında "azərbaycanlıların İsa bulağında kef məclisi" təxribatı...

***Akif Nağı:** "Bu videonu ermənilər haradasa çəkiblər və onu montaj edərək Azərbaycan cəmiyyətini qıcıqlandırmaq üçün sosial şəbəkələrdə yayıblar"*

**Ermənilərin Azərbaycana qarşı törətdikləri təxribatçı hərəkətlərin miqyası günü-gündən genişlənir. Onlar əllərində olan imkanlardan istifadə edərək bizə qarşı hər cür xoşagəlməzliklər törədirlər. Bu gün ermənilər torpaqlarımızı işğal altında saxlamaqla yanaşı, abidələrimizi dağıdır, onları saxtalaşdırır, həm də Azərbaycana qarşı informasiya müharibəsi aparırlar.**

Bu günlərdə erməni saytlarında, eləcə də sosial şəbəkələrdə Azərbaycana qarşı növbəti erməni iyrəncliyi yer alıb. Ermənilər tərəfindən sosial şəbəkələrdə ilginc və inanılması mümkün olmayan bir video paylaşılıb. Yayılan videogörüntüdə göstərilir ki, guya bir qrup azərbaycanlı Şuşada yerləşən məşhur İsa bulağında istirahət edir və burada yeyib-içir (?). Hətta görüntülərdə o da təqdim edilir ki, "azərbaycanlı turistlər" erməni qadından araq alırlar. Onu da vurğulayaq ki, videonu müşayiət edən danışıq səsləri təmiz Azərbaycan dilində eşidilir, hətta ləhcədən bu insanların Azərbaycanın hansı bölgəsində yaşamasını da müəyyənləşdirmək mümkündür. Azərbaycan sosial şəbəkələrində də geniş müzakirə edilən bu videogörüntüdə olan insanların azərbaycanlı olmadığı məlumdur. Bildirilənə görə, bu videodakı ermənilərdir və onlar belə rəy yaratmaq istəyirlər ki, guya azərbaycanlılar çox sərbəst şəkildə işğal altında olan Azərbaycan torpaqlarına gedirlər, hətta yeyib-içmək məclisi də qururlar.

Ekspertlər qeyd edirlər ki, bu video ermənilər tərəfindən məqsədli şəkildə çəkilərək sosial şəbəkələrə və mediaya ötürülüb. Onların məqsədinə gəlincə, ekspertlər hesab edirlər ki, bu birbaşa UNESCO-nun Ümumdünya İrs Komitəsinin Bakı sessiyasına qarşı bir təxribatdır. Yəni Azərbaycan tərəfi haqlı olaraq sessiyada ölkəmizin işğal altındakı ərazilərinin taleyi ilə bağlı məsələ qaldırıb və orada bir nəfər də olsun azərbaycanlının qalmadığını bildirib. Buna görə də ermənilər belə bir video yayırlar ki, guya orada azərbaycanlılar var və istədikləri vaxt işğal altındakı torpaqlarımıza gəlib-gedə bilirlər.



*"UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının keçirildiyi bir zamanda belə saxta videogörüntülərin ermənilər tərəfindən sosial şəbəkələrdə yayılması..."*

Ekspertlər hesab edirlər ki, azərbaycanlılar erməni işğalı altındakı dədə-baba torpaqlarına sərbəst gedib-gəlirlərsə, bəs onda necə ola bilir ki, yaxınlarının qəbrini ziyarət etmək üçün doğma yurduna gedən Dilqəm Əsgərov və Şahbaz Quliyev hələ də erməni əsirliyində, girovluğunda saxlanırlar. Məlumdur ki, Ermənistanın bütün giriş məntəqələrində azərbaycanlı soyadlıların ölkəyə daxil olmasına qadağa qoyulduğu halda, necə olur ki, bir qrup azərbaycanlı işğal altındakı İsa bulağına gedib çıxa bilib və sərbəst şəkildə erməni qızına Azərbaycan dilində içki sifariş edir?

Qeyd edək ki, sosial şəbəkələrdə yayılan videogörüntüdəkilərin azərbaycanlı olmadıqları şübhə doğurmur. Ermənilər işğal etdikləri Azərbaycan ərazilərindən əhalini qovub, etnik təmizləmə siyasəti həyata keçiriblər. Orada yalnız ermənilər yaşayırlar.

**Qarabağ Azadlıq Təşkilatının (QAT) sədri Akif Nağı olayla bağlı "Bakı-Xəbər"ə bildirdi ki, yayılan videogörüntülərdəki şəxslər azərbaycanlılar deyil, bu insanlar ermənidirlər.** A.Nağının sözlərinə görə, bu gün hansısa bir azərbaycanlının turist kimi, yaxud başqa bir şəkildə işğal altında olan Azərbaycan torpaqlarına getməsi, hələ üstəlik də orada məclis qurması, birmənalı olaraq, mümkün deyil. Yayılan videogörüntünün növbəti erməni təxribatı olduğunu deyən A.Nağının sözlərinə görə, onların məqsədi belə videolar yaymaqla Azərbaycan cəmiyyətini qıcıqlandırmaqdır. "Bu videogörüntü sosial şəbəkələrdə çox qızğın şəkildə müzakirə olunur və bununla bağlı müxtəlif fikirlər mövcuddur. Hətta bu görüntüdən depressiyaya düşənlər də olub. Bu videogörüntülər bizim cəmiyyətdə səs-küylü reaksiyalar doğurub. Ancaq bu görüntülər həqiqəti əks etdirmir və təxribatdır. Hesab edirəm ki, ermənilərin qəsdən çəkdikləri və görüntülərdəkilərin azərbaycanlılar olduğunu iddia etdikləri videogörüntü təxribat xarakterlidir. Bu görüntülərdəkilər azərbaycanlılar deyil, ermənilərin özləridir. Bu videonu ermənilər haradasa çəkiblər və onu montaj edərək Azərbaycan cəmiyyətini qıcıqlandırmaq üçün sosial şəbəkələrdə yayıblar. Erməni təxribatının qarşısının alınması üçün cəmiyyət lazımi reaksiya verməlidir. Fikrimcə, dövlət orqanları ermənilər tərəfindən yayılan bu təxribatçı video ilə bağlı araşdırmalar aparsaydılar və araşdırmaların nəticələri ilə ictimaiyyəti tanış etsəydilər, çox yaxşı olardı".

A.Nağı, həmçinin, hesab edir ki, ermənilərin "azərbaycanlıların" İsa bulağında kef etməsi ilə bağlı təxribatçı videonu yaymaqda məqsədlərindən biri də UNESCO-nun Bakı sessiyasına qarşı təxribatçı mövqe tutmaları ilə bağlı ola bilər. "Bu gün Bakıda UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası keçirilir. Bilirsiniz ki, sessiya öz işinə başlamamışdan əvvəl də ermənilər Azərbaycana qarşı müxtəlif təxribatçı fikirlər yayırdılar. Düşünürəm ki, onlar bu videogörüntünü paylaşmaqla dünya ictimaiyyətinin fikrini çaşdırmaq istəyirlər. Bilirsiniz ki, Azərbaycan son illər davamlı olaraq bir sıra beynəlxalq tədbirlərə evsahibliyi edir və bu tədbirlər də çox yüksək səviyyədə keçirilir. Ermənilər isə bütün beynəlxalq məsələlərdən təcrid olunublar və belə bir nüfuzlu sessiyanın Bakıda keçirilməsini qısqanclıqla qarşılayırlar. Bu sessiyada sözsüz ki, ermənilərin işğal altında saxladıqları Azərbaycan əraziləri, tarixi abidələri haqqında da danışılır. Bu da erməni saxtakarlığının, işğalçılığının növbəti dəfə ifşa olunması deməkdir. Ona görə də düşünürəm ki, UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasının keçirildiyi bir zamanda belə saxta videogörüntülərin ermənilər tərəfindən sosial şəbəkələrdə yayılması Bakı sessiyasına qarşı da təxribat sayıla bilər" - deyə A.Nağı vurğuladı.

***İradə SARIYEVA***

# ABŞ və İran müharibənin bir addımlığında...
# Vaşinqton Tehranın nüvə obyektlərinə nüvə zərbəsi endirməyi nəzərdən keçirir

**ABŞ və İran arasında artan gərginlik fonunda sonuncunun zənginləşdirilmiş uran limitini artırmaq niyyəti bu iki ölkənin gözlənildiyindən də tez savaşa başlamalarını istisna etmir. ABŞ və İsraildə hesab edirlər ki, İran bu gedişlə nüvə silahına sahib olmaq niyyətindədir. Lakin həm Vaşinqton, həm də Təl-Əviv buna qətiyyən icazə verməyəcəklərini açıqlayıb.**

Bildirilir ki, lazım gələrsə, İranın nüvə obyektlərinə hərbi zərbələr endiriləcək. Bunlara rəğmən, İran hökuməti zənginləşdirilmiş uran limitini nüvə sazişində müəyyən edilən 300 kiloqramlıq həddin üzərinə çıxaracağını açıqlayıb.

Bundan başqa, İran nüvə sazişi üzrə Birgə Hərtərəfli İş Planının şərtlərinə qayıtmaqdan da imtina edib. Məhz belə bir vaxtda ABŞ Mərkəzi Qüvvələr Komandanlığı (CENTCOM) Qətərdəki Əl-Udeyd hərbi hava bazasında F-22 Raptor tipli döyüş təyyarələrini yerləşdirib. Bildirilir ki, səsüdən döyüş təyyarələri ABŞ qüvvələrinin və ABŞ Mərkəzi Qüvvələr Komandanlığının nəzarətindəki bölgələrdə maraqların qorunması məqsədilə Qətərə ilk dəfə göndərilib. ABŞ-ın Əl-Udeyd hərbi hava bazasında 13 minə yaxın əsgəri var. Səsüdən baza Suriya və İraqdakı İŞİD terror təşkilatına qarşı mübarizə məqsədilə istifadə olunur. Lakin bu gedişlə ondan İrana qarşı da istifadə olunması proqnozlaşdırılır. Rusiyanın "regnum.ru" portalı isə yazır ki, ABŞ İran məsələsini qısa müddətdə həll etmək üçün nüvə zərbəsindən istifadəni də düşünür: "ABŞ hərbi-siyasi rəhbərliyi İrana zərbə zamanı gücü zəif nüvə silahı işlətməyi mümkün sayır. Tehranın nüvə kompleksinin və raket proqramının obyektləri nüvə basqını vasitələrinin hədəfi kimi müəyyən edilə bilər.

ABŞ prezidenti Donald Tramp 2019-cu il iyunun 24-də İranın ali dini lideri ayətullah Əli Xameneyini "düşmən davranışı"nda ittiham edib və öz sərəncamı ilə ona və İslam İnqilabı Keşikçiləri Korpusunun səkkiz yüksək rütbəli zabitinə qarşı sanksiya qoyub. Bu, ayətullah Əli Xameneyiyə münasibətdə ilk dəfə tətbiq olunub. İran prezidenti Həsən Ruhani Amerika liderinin bu addımını əlüstü şərh edib: "Amerika administrasiyası ağıldan kəmdir. ABŞ göstərib ki, dialoqa hazır olmaq bəyanı yalandır. Tehranın strateji səbri var, biz qorxmuruq".

Bu bəyanat Ağ Evdə güclü qıcıq doğurub və milli ruhu, siyasi və dini institutları baxımından Birləşmiş Ştatların başqa xalqlar arasında özəl yer tutduğuna dair Amerikanın müstəsnalığı dünyagörüşündə tərbiyə almış ABŞ hərbi-siyasi başçıları tərəfindən çox mənfi qarşılanıb. Donald Tramp Həsən Ruhaninin ifadəsinə şəxsən reaksiya verib. O qeyd edib ki, təəssüf ki, İran rəhbərliyi yalnız güc və qüvvənin dilindən anlayır və "ABŞ bu gün dünyada təkcə son iki ildə 1,5 trilyon dollar yatırılan ən qüdrətli hərbi gücdür". Tramp növbəti tvitində yazıb ki, heç bir səbəb olmadan əziyyət çəkən, başçılarının bütün pulları terrora sərf etdiyi İran xalqına yazığı gəlir. O vurğulayıb ki, Birləşmiş Ştatlar "İranın 2000 amerikalını öldürən və bir çox başqalarını yaralayan ələdəqayırma partladıcı qurğulardan istifadə etdiyini unutmayıb".

Amma bu mövzuda ən önəmlisi ABŞ prezidentinin üçüncü məlumatında ifadə olunub. Tam sitat sıradakıdır: "İranın bu gün verilən olduqca cahil və təhqiramiz bəyanatı yalnız bunu göstərir ki, onlar mətləblərin gerçək durumunu anlamırlar. İranın Amerikaya aid nəyəsə istənilən hücumu böyük və üstün qüvvə ilə qarşılanacaq, "üstün qüvvə" bəzi bölgələrdə məhv edilməyi bildirəcək. Daha nə Con Kerri, nə də Obama olacaq!"

Güman etməyə bütün əsaslar var ki, ABŞ prezidenti üçüncü tvitdə nüvə basqını vasitələrindən yararlanmaqla İrana zərbə haqqında danışıb. Qeyd edilməlidir ki, bunu İranda yaxşı anlayıblar. İran XİN başçısı Məhəmməd Cavad Zərif iyunun 26-da CNN müxbirinin Donald Tramp tərəfindən hədələr haqda sualını cavablandırıb: "Bu bəyanat xəbər ondan verir ki, ABŞ-ın niyyətləri qanunsuzdur, ABŞ o durumda deyil ki, İranı məhv etsin, onun yasaqlanmış silahdan istifadə etməkdən başqa imkanı yoxdur". 2017-ci il fevralın 2-də ABŞ-ın indiki prezidenti tərəfindən yeni nüvə doktrinası haqda sənəd hazırlamaq göstərişi verilib. Bu, 2018-ci il fevralın 2-də dərc olunub. Yeri gəlmişkən, əvvəlki oxşar sənəd 2010-cu ildə prezident Barak Obama dönəmində bəyənilib. Həmin sənədə əsasən, "ABŞ, müttəfiqlərimiz və tərəfdaşlarımız üçün mümkün cüzi itkilərlə və maksimal əlverişli şərtlərlə istənilən münaqişəyə son qoymaq"dan ötrü Birləşmiş Ştatların nüvə silahı işlətməsi mümkündür.

Doktrinada deyilir ki, Birləşmiş Ştatlar özünə, müttəfiqlərinə və tərəfdaşlarına qarşı təcavüzün nüvə silahı işlətməklə və yaxud işlətmədən qoyulan məqsədlərə çatmaması üçün çevik nüvə qüvvə və vasitələrinin geniş diapazonunu dəstəkləyəcək. Beləliklə, ABŞ-ın özünə, müttəfiqlərinə və tərəfdaşlarına hətta qeyri-nüvə zərbəsinin qarşılığında nüvə silahı tətbiq etmək imkanından birbaşa danışılır. ABŞ-ın nüvə doktrinasında qeyd olunub ki, İran uyğun qərar qəbul edildiyi andan bəri nüvə silahı yaratmaq üçün gərəkli potensial və texniki imkanların önəmli bölümünü bir il boyunca saxlayıb. Yeri gəlmişkən, Donald Tramp və ABŞ-ın başqa rəsmiləri dəfələrlə bildiriblər ki, Tehranın nüvə silahı yaratmasına heç vaxt imkan verməzlər.

ABŞ-ın yeni nüvə doktrinası qeyri-strateji nüvə qüvvə və vasitələrinin yardımı ilə zərbəni qabaqlamağın effektivliyini yüksəltməyi nəzərdə tutur və "bölgə miqyasında təcavüzü önləmək bacarığını saxlamaq" üçün gücü zəif nüvə silahı işlətmək imkanına yol açır. Ekspertlərin fikrincə, ABŞ tərəfindən nüvə cəbbəxanası olmayan ölkələrə qarşı gücü zəif nüvə döyüş sursatları tətbiq edilə bilər, çünki Rusiya və Birləşmiş Ştatlar arasında heç bir məhdud savaş ola bilməz. Pentaqonda məhəlli münaqişələr çərçivəsində gücü zəiflədilmiş nüvə döyüş sursatlarının yüksək dəqiqlikli sistemlərlə uyğunluqda qeyri-nüvə dövlətlərinə qarşı tuşlamaq imkanlarını ciddi müzakirə edirlər.

Amerika Alimləri Federasiyasının məlumatına görə, indiki anda ABŞ cəbbəxanasında 1000-dən çox gücü zəif nüvə döyüş başlığı var. Güc 20 kilotona bərabər və ya az olanda zəif sayılır. ABŞ-ın nüvə doktrinasına uyğun olaraq ən yeni gücü zəif nüvə döyüş sursatının inkişaf etdirilməsi artıq gedir. Bu, sualtı qayıqların ballistik raketlərində, dəniz bazalı qanadlı raketlərdə və B-61 tipli aviabombalarda yerləşdiriləcək. Açıq əlyetən məlumatlara görə, ABŞ Hərbi Dəniz Qüvvədəri W76-2 nüvə döyüş başlıqlarının ilk partiyasını 2019-cu il sentyabrın 30-dək almalıdır. Döyüş başlığı "Ohayo" sinifli sualtı qayıqların istifadə etdiyi "Trident II" ballistik raketlərində qurulacaq. Döyüş başlığının gücü trotil ekvivalentində 5-6 kiloton dəyərləndirilir. Təkmilləşdirilmiş B61-12 nüvə aviabombası 2020-ci ilə doğru ABŞ SQ-nin silahlanmasına daxil olmalıdır. Güc seçiminə görə onun dörd variantı var: 0,3, 5, 10 və 50 kiloton. B61-12 öz sələflərindən - B61-3, B61-4, B61-7 və B61-10 bombalarından üç qat daha dəqiqdir. Yeni döyüş sursatının yönəldilən quyruq hissəsi öz hədəfinə planlaşdırılmaqla düşmənin HHM zonasına girmədən tapşırığı yerinə yetirmək imkanı verir.

İrana qarşı nüvə vasitələri basqısının mümkün tətbiqi məsələsi incələndiyi zaman Donald Trampın şəxsi səciyyələrini də nəzərə almaq gərəkdir. Bu adam prezident postuna biznesdən gəlib və Pareto qanunu - "20% cəhdin 80% nəticə verdiyi" effektivlik prinsipi ona yaxşı bəllidir.




20/80 yanaşmasını Amerika prezidentinin İranla mümkün savaş haqqında "Fox Business" telekanalına cavabı da təsdiqləyir: "Ümidvaram ki, xeyr. Amma nəsə baş verərsə, biz olduqca üstün durumdayıq. Mən yerüstü əməliyyatdan danışmıram, mən demirəm ki, bir milyon əsgər göndərərik. Sadəcə deyirəm ki, nəsə olsa, çox vaxt aparmaz".

Yaranmış gərginlik fonunda ABŞ-ın Yaxın Şərqdəki hərbi qruplaşmasını azca artırmaq da bu strategiyaya sığışır. Bu qayda ilə tam aydındır ki, ABŞ-ın hərbi-siyasi rəhbərliyi İrana zərbə zamanı gücü zəif nüvə basqısı vasitələrinin tətbiqinə yol verir. Tehranın nüvə kompleksinin və raket proqramının obyektləri nüvə basqını vasitələrinin hədəfi kimi müəyyən edilə bilər. Bunun üçün gərəkən hər şey var: qanunvericilik bazası, gücü zəif nüvə döyüş sursatı, ABŞ prezidenti Donald Trampın müəyyən şəraitdə belə bir addım atmağa psixoloji hazırlığı. Lazım olan yeganə şey uyğun durumdur, belə ki, İranın hərəkətinə cavab zərbəsi vurmaq son dərəcə daha üstündür. Burada silahlı münaqişənin əsas mənfəətdarları İsrail və Səudiyyə Ərəbistanının ABŞ-ın İranla böhranı hərbi yollarla həll etməkdə maraqlı olan siyasi və hərbi isteblişmentinin bir hissəsi də təxribatın təşkilinə yardım edə bilər".

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycanın uğurlu siyasi gedişləri Erməniştanı regionda daha aciz duruma saldı - erməni ekspertlər İrəvanın Rusiya təsirini Ankara ilə əvəzləməsini təklif edirlər...

**Rusiya və Gürcüstan arasında münasibətlərin kəskinləşməsi fonunda Ermənistanın regional təcridinin dərinləşməsi düşmən ölkədə getdikcə daha böyük şok effekti yaratmaqdadır. Hesab edilir ki, Gürcüstan üzərindən Rusiya məhsullarının Ermənistana daşınması dayansa, bu hal İrəvanın ilk növbədə böyük sosial-iqtisadi problemlər yaşamasına, bir çox məhsulların isə qıtlığına gətirib çıxaracaq.**

Eyni zamanda, bunlara paralel olaraq Dağlıq Qarabağda münaqişənin yenidən alovlanması Ermənistan üçün kifayət qədər ağır zərbə sayılır.

Qeyd olunanlar fonunda "Jamanak" nəşri yazır ki, son 10 gün ərzində baş verən hadisələr onsuz da pis vəziyyətdə olan Gürcüstan-Rusiya münasibətlərini daha da kəskinləşdirib. Nəşrin məlumatına görə, Rusiya prezidentinin əmrilə Rusiya Silahlı Qüvvələrinin Mərkəzi Hərbi Dairəsi qoşunları, Şərq və Cənub Hərbi dairələrinin hərbi birləşmələri, o cümlədən Gümrüdəki 102 saylı hərbi baza və Erebunidə yerləşən 3624 saylı aviabaza tam döyüş hazırlığı vəziyyətinə gətirilib. Bu isə Moskva və Tiflis arasında yeni hərbi qarşıdurmanı istisna etmir. Ermənistan parlamentinin deputatı Arman Babacanyanın sözlərinə görə, Gürcüstan-Rusiya münasibətlərində davam edən gərginlikdə ölkəsi üçün də risqlər mövcuddur. Deputatın fikrincə, Ermənistan ərazisində yerləşdirilmiş rus qoşunlarından istifadənin rəsmi İrəvan üçün faciəvi nəticələri olacaq və buna görə də erməni hökuməti bu hərbi kontingentin istifadəsinə imkan verməməlidir. Amma o etiraf edib ki, ölkəsi hadisələrin bu səpkidə inkişafının qarşısını almaqda acizdir. Bunu Ermənistan parlamentinin keçmiş vitse-spikeri, Respublika Partiyasının mətbuat katibi Eduard Şarmazanov da təsdiq edir: "Bu gün Rusiya ilə Gürcüstan, eləcə də ABŞ-la İran arasındakı siyasi gərginləşmə rəsmi İrəvanı olduqca çətin vəziyyətlə üz-üzə qoymaqdadır. Bu vəziyyət Ermənistan üçün ciddi problemlər yarada bilər".

Onun fikrincə, Gürcüstan və Rusiya arasındakı gərginlik erməni-gürcü münasibətlərinə təsir göstərməsə də, bu vəziyyət İrəvanı narahat etməyə bilməz. Ermənistan-Gürcüstan münasibətlərinə üçüncü tərəfin təsirinin olmaması barədə İrəvanla Tiflis arasında razılaşmanı xatırladan Şarmazanov son yaşantılara rəğmən narahatlığını da gizlədə bilmir: "Moskva ilə Tiflis arasındakı gərginlik İrəvanı heç cür məmnun edə bilməz. Rusiya ilə Ermənistan arasındakı bütün iqtisadi əlaqələrin məhz Gürcüstan ərazisindən keçdiyini nəzərə alsaq, bunu daha aydın başa düşmək olar. Gürcüstan paytaxtında baş verənlər davam edərsə, Ermənistanı çox çətin günlər gözləyir. Bundan Azərbaycanın istifadə edəcəyi isə şübhəsizdir". Elə rusiyalı ekspert Stanislav Tarasov da vurğulayır ki, Gürcüstanda yaranmış vəziyyət çox mürəkkəbdir və bunun ucu Ermənistana toxunacaq. O, yaranmış durumda Qarabağ savaşının yenilənməsinin Ermənistan üçün çox böyük fəsadlara gətirib çıxaracağını qeyd edir. Xatırladaq ki, Ermənistanın Rusiyaya yeganə birbaşa quru yolu Gürcüstandakı Yuxarı Larsdan keçir. Yuxarı Lars nəzarət-buraxılış məntəqəsinin bəzən birgünlük belə bağlanması Ermənistan üçün dəhral böyük problemlər yaradır. İndi Ermənistanın qorxusu Rusiya və Gürcüstan arasında yenidən münasibətlərin gərgin həddə çata bilməsi və bunun İrəvana böyük iqtisadi zərbələr vurmasıdır. İndikidə Moskva və Tiflis arasında münasibətlər getdikcə daha gərgin mərhələyə yönəlir və İrəvan qoxmaqda haqlıdır. Belə görünür ki, Rusiya Gürcüstanda onun maraqlarına qarşı edilən gedişləri gürcü tərəfinə bağışlamaq niyyətində deyil. Rusiya Federasiya Şurasının sədri Valentina Matviyenko bu durumda baş verənlərə görə məhz gürcü tərəfini ittiham edir: "Rusiya ilə Gürcüstan arasında heç bir münaqişə yoxdur. Hazırda gürcü hakimiyyəti iki ölkə arasında münasibətlərə son qoymaq üçün çalışır və bundan ötrü əlindən gələni edir. Biz heç bir təşəbbüs göstərməmişik. Gürcüstanla Rusiya arasında heç bir münaqişə yoxdur. Amma qeyd etdiyim kimi, gürcü hakimiyyəti iki ölkə arasında münasibətlərə son qoymaq üçün çalışır".

"İravnuk" qəzeti isə yazır ki, Gürcüstanla Rusiya arasında münasibətlərin pisləşməsi fonunda Ermənistanın daha zəif duruma düşməsi Qarabağ savaşını yenidən başladacaq. Qeyd olunur ki, buna şərait yaradan amillərdən biri Ermənistanın daha zəif hala gəlməsi, eyni zamanda beynəlxalq şəraitin də İrəvanan əleyhinə işləməsidir. Elə rusiyalı hərbi analitik Pavel Felqenhauer də məsələyə bu prizmadan yanaşır: "Dağlıq Qarabağ münaqişəsi üzrə danışıqların davam etdirilməsi üçün cəbhə xəttində sabitlik tədbirləri və addımları vacibdir. Amma dəyişən geosiyasi şərait, xüsusən də Rusiya-Gürcüstan münasibətlərinin pisləşməsi ortaya fərqli mənzərə çıxara bilər". Onun sözlərinə görə, son zamanlar baş verən hadisələr, yəni bir tərəfdən sərhədi keçmiş şəxslərin geri qaytarılması məsələsi istiqamətində ümumi addımlar, digər tərəfdən danışıqlar prosesi çərçivəsində razılaşmalar, müharibəyə hazırlaşmaqla bağlı iki tərəfin bəyanatları, yeni silah növlərinin alınması üçün əldə olunan razılaşmalar vəziyyətin birmənalı olmadığını və kifayət qədər mürəkkəb olduğunu sübut edir: "Burada vəziyyət mürəkkəbdir. Təmas xəttində də vəziyyət bu cürdür. Xoşagəlməz ssenarilərə icazə verməmək üçün böyük səylər tələb olunur, çünki tərəflər son zamanlar yeni silah növlərinin alınmasından çox danışırlar. Mən həmişə demişəm ki, tərəflər hazırlaşırsa, bu müharibədən qaçmaq mümkünsüzdür. 2016-cı ildə belə bir hadisə yaşandı". Ekspert vurğulayır ki, bu dəfə savaş başlasa, Rusiya çətin ki, onu dayandırsın.

Erməni analitik Yervand Bozoyanın sözlərinə görə isə, Rusiya ilə yanaşı, ABŞ da Ermənistanın əleyhinə mövqe tutub. O vurğulayır ki, ABŞ prezidentinin milli təhlükəsizlik üzrə müşaviri Con Boltonun fikrincə, Qafqazda yalnız bir güc var - Azərbaycan - Türkiyə tandemi. Bozoyan bildirib ki, Boltonun Cənubi Qafqaz baxışını 4 prinsiplə izah etmək olar: "Birincisi, Ermənistan İranla sərhədlərini bağlamalıdır. Ən yaxşı halda, Mehri rayonu Qarabağın bir hissəsinə qarşılıq bölünə bilər ki, buna da Azərbaycan və Türkiyə razıdır. İkincisi, Mehri variantı işləməsə, erməni tərəfi gərək Azərbaycan və Türkiyənin maraqları ilə razılaşıb, ümumiyyətlə Qarabağdan imtina etsin. Əks halda Ermənistanın mövcudluğu şübhə altına düşəcək. İranın bölünməsi Azərbaycan və Türkiyənin regionda güclü mövqelərə sahib olması üçün vacibdir. Üçüncüsü, ermənilər Rusiyanın təsiri altından çıxıb, Türkiyənin təsirinə adaptasiya olmalıdır. Ona görə ki, regionda başqa nüfuzlu ölkə yoxdur. Dördüncüsü, Ermənistanda ictimai fikrin dəyişdirilməsi üçün Paşinyan dəstəklənməli, Qarabağ dairəsi neytrallaşdırılmalıdır". Bozoyan bu mövqenin Ermənistan üçün mümkünsüz olduğunu bildirib. Onun sözlərinə görə, Ermənistanın, Gürcüstandan fərqli olaraq, geosiyasi oriyentasiyasını dəyişməsi üçün alternativi yoxdur. Əgər Gürcüstanın Rusiyadan ayrılması Abxaziya və Cənubi Osetiyanın ondan qopmasına səbəb oldusa, Ermənistan üçün belə olan halda təkcə Qarabağ və Sünik yox, həm də dövlətçilik yox olacaq. Hesab edilir ki, yaranmış durumda Ermənistan Azərbaycanla danışıqlara gedib nəticə əldə etsə, özünü yox olmaqdan xilas edə bilər. Əks təqdirdə Azərbaycan nəinki Qarabağı öz nəzarətinə qaytaracaq, həm də Ermənistanı bir dövlət kimi məhv edəcək. Elə politoloq, sabiq diplomat Fikrət Sadıqov da bildirir ki, savaşın başlanması Ermənistan üçün böyük fəlakət deməkdir: "Xarici işlər nazirlərinin Vaşinqton görüşündən sonra təmas xəttində müəyyən sakitlik yaranıb. Amma bu sakitlik süni xarakter daşıyır".

Politoloq bildirib ki, görünür, aparıcı dövlətlər, xüsusilə ABŞ Vaşinqton görüşündən sonra Ermənistana "qulaqburması" verib: "Xatırlayırsınızsa, ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Cənubi Qafqaza səfəri zamanı demişdi ki, Dağlıq Qarabağ münaqişəsinə son vermək lazımdır. Bu açıqlamanın Ermənistanda verilməsi birbaşa rəsmi İrəvana mesaj idi. Məsələnin digər tərəfi ondan ibarətdir ki, Ermənistan bütün hallarda çalışır işğal olunmuş torpaqlar öz nəzarəti altında qalsın. Əslində başa düşürlər ki, hüquq onların tərəfində deyil, beynəlxalq təzyiqlər var. "Qarabağ klanı" hələ ki, kifayət qədər güclüdür və baş nazir Nikol Paşinyana qarşı təxribatlar törədirlər. Hətta Robert Köçəryanla bağlı da bir sıra addımlar atılır. Ermənistanın qeyri-stabil daxili siyasəti və çətin durumda olmasına baxmayaraq, bütün bunlar azmış kimi İrəvan Rusiya ilə də münasibətləri pozub. Hətta AŞPA-da Rusiyanın assambleyaya qayıtması ilə bağlı səsvermədə iki erməni əleyhinə səs vermişdi. Sonradan bunun texniki yanlışlıq olduğu bildirilsə də, bu gülünc açıqlamadır". F.Sadıqov qeyd edib ki, Ermənistanın hər şəraitdə ikiüzlü siyasət yürütməsi göz qabağındadır: "Bu təkcə Azərbaycanla bağlı deyil, həm də ən yaxın müttəfiqlərilə bağlı işlərdə özünü büruzə verir. Bütün bunlara rəğmən, Ermənistanla yekun nəticəyə gəlmək üçün Azərbaycan diplomatik səylərini gücləndirməlidir. Çünki bu səylər Ermənistanı siyasətini dəyişməyə vadar edir. Ermənistanın həm hərbi, həm də diplomatik təzyiq altında qalması onu boyun əyməyə gətirib çıxaracaq". Yuxarıda qeyd olunduğu kimi, bunların əksinin yaşanması Ermənistana böyük fəsadlar vəd edir. Çünki regionda Ermənistan əvvəlki dövrlərlə müqayisədə indi daha aciz duruma düşüb. Şübhəsiz ki, bütün bunlarda Azərbaycanın uğurlu diplomatik gedişlərinin də rolu az olmayıb. İndi İrəvan bütün bunlardan lazımi nəticə çıxarıb Qarabağ münaqişəsinin həlli istiqamətində müvafiq addımlar atmasa, Ermənistanı daha sarsıdıcı zərbələr gözləyir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# UNESCO-nun Bakı sessiyası erməni işğalındakı abidələrimizi beynəlxalq sənədə saldı

## *Fariz Xəlilli: "UNESCO-nun Ümumdünya İrs Komitəsinin Bakı Bəyannaməsini təqdir edirəm, amma bunlar kağız üzərində qalmalı deyil"*

**Məlum olduğu kimi, paytaxtımızda UNESCO-nun Dünya İrs Komitəsinin 43-cü sessiyası keçirilir. İyulun 10-da başa çatacaq Bakı sessiyasında bir sıra məsələlər müzakirə edilib. UNESCO-nun Dünya İrs Komitəsinin sessiyasında Bakı Bəyannaməsi qəbul edilib.**

Mədəniyyət naziri Əbülfəs Qarayevin bildirdiyinə görə, Bakı Bəyannaməsi dünyada mədəni irsin qorunmasına xidmət edir və dünya ictimaiyyətinin diqqətini bu məsələyə yönəltmək məqsədi daşıyır.

Qeyd edək ki, bəyannamədə komitəyə üzv olan ölkələrdə yerləşən Dünya İrs Siyahısına daxil edilmiş mirasların effektiv qorunması, saxlanması və idarə edilməsi istiqamətində səylərin artırılmasının zəruriliyi qeyd olunur. Həmçinin, bəyannamədə münaqişə zonalarında təbii və mədəni irsin dağıdılmasından, o cümlədən, arxeoloji ərazilərdə qanunsuz qazıntılardan, mədəniyyət nümunələrinin qanunsuz daşınmasından, mədəni sərvətlərin qanunsuz istismar edilməsindən narahatlıq ifadə olunub. Burada Azərbaycanın ermənilər tərəfindən işğal altında saxlanan abidələrinin taleyi də diqqətə çəkilib. Bəyannamədə üzv ölkələrlə Dünya İrs Komitəsi arasında dialoqun gücləndirilməsi, irs miraslarına təsir edən iqlim dəyişikliyi, təbii və insan tərəfindən törədilən fəlakətlər və digər müxtəlif qlobal çağırışların aradan qaldırılmasının zəruriliyi qeyd edilir.

**Sessiyada qəbul edilən Bakı Bəyannaməsinin əhəmiyyətindən danışan MİRAS-Milli Mədəniyyətin Öyrənilməsinə Kömək İctimai Birliyinin rəhbəri, tarix üzrə fəlsəfə doktoru, maddi irs üzrə mütəxəssis Fariz Xəlilli "Bakı-Xəbər"ə bildirdi ki, Bakı Bəyannaməsini təqdir edir.** "Zaman-zaman belə tədbirlərdə işğal altında olan mədəni irs abidələrinin vəziyyəti müzakirə edilməli və bu öz əksini sənədlərdə tapmalıdır. İşğalçıların bu abidələrə qarşı törətdikləri vandalizm hərəkətləri, bəzi abidələrin konservasiyaya cəlb etmələri, qanunsuz bərpa etmələri, bizim tərəfimizdən aşkar edilən saxtakarlıqlar beynəlxalq ictimaiyyətə çatdırılmalıdır. Eyni zamanda, işğal altında olan Azərbaycan torpaqlarında ermənilər tərəfindən dağıdılan abidələr sənədləşdirilməlidir. Əslində, UNESCO-nun Ümumdünya İrs Komitəsinin bu cür təhlükə altında olan mədəni irs abidələri ilə bağlı layihələri də mövcuddur və belə layihələrdə, xüsusən də sənədləşdirmə layihələrində bizim iştirakımız düzgün addım olardı. Düşünürəm ki, gələcəkdə Mədəniyyət Nazirliyi belə layihələrdə yer alacaq. Biz 2015, 2016, 2017-ci illərdə tarixi Qarabağ irsi sənədləşdirmə layihəsi üzərində işləmişik və həmin layihəni Mədəniyyət Nazirliyi ilə müzakirə də etmişik. O vaxt Ümumdünya İrs Fondunun təhlükə altında olan mədəni irs nümunələrinin sənədləşdirilməsi ilə bağlı bir qrant layihəsi vardı, biz həmin layihəni ora təqdim etmək istəyirdik. Amma təəssüflə qeyd etməliyəm ki, hansısa səbəbdən biz o layihəni ora təqdim edə bilmədik. Fikrimiz o idi ki, biz layihəni təqdim etdikdən sonra UNESCO-nun Ümumdünya Mədəni İrs Komitəsinin missiyası gedib işğal altında olan abidələrimizin vəziyyətini öyrənsin. O layihəni biz sadə bir elmi məqalə şəklində nəşr edə bildik, ona başqa cür diqqət cəlb edə bilmədik. Hesab edirəm ki, UNESCO-nun Ümumdünya İrs Komitəsinin qəbul etdiyi bəyannamədəki məsələlər, o cümlədən, işğal altında olan Azərbaycan torpaqlarındakı maddi irsimizlə bağlı məqamlar kağız üzərində qalmamalıdır. UNESCO-nun müvafiq qurumu Bakı sessiyası başa çatdıqdan sonra işğal altındakı Azərbaycan torpaqlarında ermənilər tərəfindən saxtalaşdırmaya, dağıntıya, qanunsuz restavrasiyaya məruz qalan maddi-mədəni irsimizin hazırkı vəziyyətini öyrənmək, araşdırmaq üçün ora missiya təşkil etməlidir. Bilirsiniz, BMT başda olmaqla, bir sıra beynəlxalq qurumlar işğalçını tanıyır, bunu qəbul etdiyi sənədlərdə də göstərir, lakin bununla bağlı tədbir görmürlər. Azərbaycanın işğal altında olan abidələrinin, maddi irsinin taleyinə ciddi yanaşılmalıdır. Bu gün beynəlxalq ictimaiyyət işğalçını tanıyır və onun dağıtdıqları maddi-mədəni irs haqqında məlumatı var, amma ona təzyiq göstərmir ki, torpaqları işğaldan azad et və mədəni irs abidələrinə qarşı saxtakarlığı dayandır. Əslində, bu təşkilatlar işğalçıya təzyiq göstərməlidirlər" -deyə F.Xəlilli qeyd etdi.



## *"Biz işğal altındakı abidələrimizi beynəlxalq missiya vasitəsilə nəzarətdə saxlamalıyıq"*

F.Xəlilli hesab edir ki, Azərbaycan, UNESCO və digər beynəlxalq qurumlar işğal altında olan abidələrimizin taleyi ilə bağlı xüsusi işlərin görülməsinə nail olmalıdır. Mütəxəssisin sözlərinə görə, biz UNESCO-nun müvafiq qurumunun dəstəyilə o abidələrin mövcud vəziyyətini, tarixdəki yerini öyrənməli, araşdırmalı, eləcə də bərpa və konservasiyası ilə bağlı xüsusi layihə sənədi hazırlamalıyıq. "Bu gün ora getməyə hazırlaşdığımızı bildirməli və bunu bir təzyiq vasitəsinə çevirməliyik. UNESCO-nun Ümumdünya İrs Komitəsinin Bakı Bəyannaməsini təqdir edirəm ki, amma hesab edirəm ki, bunlar kağız üzərində qalmalı deyil, konkret təsir rıçaqları mövcud olmalı və beynəlxalq missiya ilə birgə işğal altındakı ərazilərimizə gedilməli və yerindəcə abidələrimizin vəziyyəti müəyyənləşdirilməlidir. Biz işğal altındakı abidələrimizi beynəlxalq missiya vasitəsilə nəzarətdə saxlamalıyıq. Bu çox vacib məsələdir" - deyə ekspert qeyd etdi.

***İradə SARIYEVA***

**İyulun 1-dən etibarən milli valyutada olan qorunan əmanətlər üzrə illik faiz dərəcəsinin yuxarı həddi 10 faiz, xarici valyutada isə 2,5 faiz müəyyən edilib. Belə ki, Əmanətlərin Sığortalanması Fondundan verilən məlumata görə, qorunan əmanətlər üzrə illik faiz dərəcəsinin yuxarı həddi milli valyutada 15 faiz, xarici valyutada isə 3 faiz təşkil edir və bu qaydaya uyğun qorunan əmanət statusunda olan depozitlərin sığortası əmanət müqaviləsinin müddəti bitənədək qüvvədə qalır.**

# Banklar kredit faizləri məsələsində ümumi narazılığı dərinləşdirməkdə davam edir...




## *Fikrət Yusifov: "Bank əmanətləri aşağı faizlə cəlb edirsə, deməli, kreditlər də aşağı faizlə verilməlidir"*

Həmçinin, iyulun 1-dən Əmanətlərin Sığortalanması Fonduna üzv olan banklarda milli valyutada 10 faizdən, xarici valyutada 2,5 faizdən yuxarı illik faiz dərəcəsi ilə əmanət yerləşdirilərsə, bu əmanətlər ƏSF tərəfindən sığorta olunmur və onlara görə kompensasiya ödənilmir.

Kredit faizlərinin formalaşmasına bir neçə amil təsir edir. Başlıca təsir edən amil vəsaitin cəlb edilməsi mənbəyidir. Azərbaycan banklarının üçün əsas maliyyə mənbəyi onların öhdəliklərinin təqribən dörddə üçünü təşkil edən depozitlərdir. Depozitlər hesabına əhaliyə yüksək faizlə kreditlər verirlər. Dəfələrlə kredit faizlərinin aşağı salınması ilə bağlı çağırışların səslənməsinə rəğmən, kredit faizləri aşağı salınmır. Bir ara bankların bəhanəsi bu idi ki, kredit faizlərinin aşağı düşməsinə mane olan səbəb depozit faizlərinin yüksək olmasıdır. Artıq bu bəhanə də aradan qalxdı. Qeyd olunduğu kimi, qorunan əmanətlər üzrə illik faiz dərəcəsinin yuxarı həddi aşağı salındı.

Maraqlıdır, bundan sonra banklar kredit faizlərini aşağı salacaqlarmı?

### *"İndi bank kreditləri üzrə faiz dərəcələri aşağı düşəcək"*

**Sözügedən məsələni dəyərləndirən iqtisad elmləri doktoru Fikrət Yusifov buna bir neçə aspektdən yanaşır.** Onun fikrincə, faiz dərəcəsinin aşağı salınması Mərkəzi Bankın son dövrlərdə apardığı siyasətə uyğun gəlir: "Mərkəzi Bank artıq bir neçə dəfə uçot dərəcəsini aşağı salıb. Bu isə o deməkdir ki, bu məsələyə yenidən baxmaq zərurəti yaranıb. Əmanətlərin faiz dərəcəsinin aşağı salınması qərarı ilə kreditlərin verilməsi ilə bağlı sahədə irəliləyiş əldə etmək olar. Çünki devalvasiyadan sonra bu sahə üzrə müəyyən problemlər yarandı. İndi bank kreditləri üzrə faiz dərəcələri aşağı düşəcək. Bank əmanətləri aşağı faizlə cəlb edirsə, deməli, kreditlər də aşağı faizlə verilməlidir. Ümumilikdə götürdükdə, bu, bank sektorunda müsbət tendensiya kimi qiymətləndirilə bilər. Əslində, 10 faiz pis göstərici deyil. Amma bu o demək deyil ki, faiz dərəcəsinin aşağı salınması sözügedən sahədə ciddi dəyişikliyə səbəb olacaq. Yəni ciddi hansı azalma və artımların olacağını gözləmək düzgün deyil. Dünya ölkələrində əmanətə görə faiz dərəcələri çox aşağıdır. Bu mənada, bizdə 10 faizi məqbul hesab etmək olar".

***Vidadi ORDAHALLI***

---

**Binalarda yanğın zamanı ehtiyat çıxışların, tüstü bacalarının, bloklarda nəzərdə tutulan su xətlərinin nə dərəcədə işlək olub-olmaması hər zaman sakinləri düşündürüb. Ekspertlər bildirirlər ki, çoxmərtəbəli binalarda yanğın təhlükəsizliyinə tam riayət olunmur.**

# Bakıda 200-dən artıq qəzalı binanın gələcəyi necə olacaq...




## *Samir Əsədov: "Bir sıra binalar var ki, onların tikintisində yanğın təhlükəsizliyi nəzərə alınmayıb"*

Çoxmərtəbəli binalarda yanğın təhlükəsizliyinə tam riayət olunmaması əhali arasında ciddi təşviş yaradır. Xatırladaq ki, bir neçə il öncə Azadlıq prospektindəki binada baş vermiş yanğın zamanı həlak olan 15 nəfərin əksəriyyəti məhz tüstüdən boğulmuşdu. Hadisə nəticəsində 64 nəfər isə yaralandı. Yanğının başlamasına ilkin versiya kimi binanın üzərinə çəkilmiş penoplas üzlüklər göstərildi. Məlumdur ki, bu gün də paytaxtda mövcud çoxmərtəbəli binaların əksəriyyətində ehtiyat yanğın çıxışları yoxdur. Bəzi binalarda yanğınsöndürən balonlar olsa da, həmin qurğu işlək vəziyyətdə deyil. Sovet vaxtı tikilən binaların həyətində əlavə kiçik binalar da yanğına qarşı ehtiyat vasitələri ilə təchiz olunurdu. Binaların eyvanlarından yanğın keçidi qoyulurdu, bəzilərində yanmasın deyə, çöldən dəmir pilləkənlər var idi.

Fövqəladə Hallar Nazirliyinin (FHN) Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin sektor müdiri Bəxtiyar Tağıyev mediaya açıqlamasında bildirib ki, 200-ə yaxın bina yanğın təhlükəsizliyi tələblərinə cavab vermir: "Bəzi hallarda yaşayış binalarını inşa edən iş adamları öz öhdəliklərini sakinlər qarşısında tam olaraq yerinə yetirməyiblər. Digər tərəfdən, onu qeyd etməliyəm ki, bir sıra kooperativ yaşayış binalarının bu gün sahibləri yoxdur. Müəssisə ləğv edilib, bina sahibləri vəfat edib. Nəticə etibarilə binada yaşayan sakinlər problemlərlə üzbəüz qalıblar. İkinci tərəfdən, Fövqəladə Hallar Nazirliyi yaradılmamışdan əvvəl tikintisi aparılmış binalarda, bir çox halda, sənədləşmə ilə bağlı problemlər qalmaqdadır. Bu günə olan məlumata əsasən, 350-yə yaxın yaşayış binasında çatışmazlıqlar qalmaqdadır. Təqribən 200-ə yaxın bina yanğın təhlükəsizliyi tələblərinə cavab vermir. Bu binalarda yanğın təhlükəsizliyi qaydalarına tam və yaxud qismən riayət olunmayıb. Qeyri-yaşayış sahələrində də müvafiq təhlükəsizlik tədbirləri görülməyib. Bildiyiniz kimi, çoxmənzilli yaşayış binalarının böyük əksəriyyətinin zirzəmi hissələrində avtodayanacaqlar yerləşir. Avtodayanacaqlar da potensial təhlükə mənbəyidir. Təsəvvür edin, avtodayanacaqda saxlanan avtomobillərin birində yanğın baş versə, nələr baş verə bilər. Bunun üçün yanğın təhlükəsizliyi baxımından müvafiq tədbirlər həyata keçirilməli, yanğınsöndürmə, siqnalizasiya, tüstü sovurma sistemləri quraşdırılmalıdır. Binalar tikilib, iş adamı mənzilləri satıb, öz gəlirini götürüb və insanlar mənzillərdə məskunlaşsalar da, problemlər öz həllini tapmayıb".

### *"Bu kimi məsələlərdə insanlar da diqqətli olmalı, öz həyatlarını təhlükəyə atmamalıdırlar"*

**200-ə yaxın binanın nə səbəbdən yanğın təhlükəsizliyi tələblərinə cavab vermədiyini dəqiqləşdirmək üçün təhlükəsizlik üzrə ekspert Samir Əsədova müraciət etdik.** O bildirdi ki, standartlara uyğun tikilən binalar dövlət qeydiyyatına alınır və orada yaşamağa icazə verilir: "Hansı binalarda ki, tikinti normalarına, təhlükəsizlik standartlarına əməl olunursa, eləcə də tikintidə istifadə olunan materiallar standartlara cavab verirsə, həmin binalar dövlət tərəfindən qeydiyyata alınır və yaşamaq üçün icazə verilir. Amma bir sıra binalar var ki, onların tikintisində bu qaydalar nəzərə alınmayıb.

Tək ehtiyat çıxışı yox, binaların həyətində parklanma, ehtiyat yanğın su çəni, hər mərtəbədə nəzarət müşahidə kameraları, o cümlədən, siqnalizasiya avadanlıqları, tüstüyə qarşı müdafiə sistemi, bütün mərtəbələri yanğın dolabları ilə təchiz olunan binalar bütün təhlükəsizlik standartlarına əməl olunaraq inşa edilən mənzillərdir. Bu kimi məsələlərdə insanlar da diqqətli olmalı, öz həyatlarını təhlükəyə atmamalıdırlar. Kimsə ev alırsa və yaxud bizneslə məşğul olmaq üçün mənzil kirayə götürürsə, təhlükəsizlik normalarına cavab verən plazalara üstünlük verə bilər. Bu cür plazalardan obyekt kirayə götürən və yaxud mənzil alan şəxs ən azından araşdırma aparmalıdır ki, burada təhlükəsizlik normalarına əməl olunur".

***Günel CƏLİLOVA***

# Məmurlar Azərbaycanın öz avtomobillərindən istifadə etsə, 200 minlik maşın söz-söhbətləri çıxmaz...

**Kəlbəcər Rayon İcra Hakimiyyətinin bahalı xidməti avtomobil alması ətrafında yaranan rezonans öz həllini tapıb. Məlum olub ki, sonda İcra Hakimiyyəti yerli istehsal olan avtomobilin alışının üzərində dayanıb. Bu barədə İcra Hakimiyyətinin İctimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Hikmət Bağırov məlumat verib.**




O bildirib ki, xidməti maşın başçı üçün deyil, onun birinci müavini üçün alınıb: "Bu, "Azərmaş" ASC-nin istehsalı olan "Khazar Peugeot" markalı avtomobildir. İcra başçısının özü isə "Toyota Avalon" markalı maşın sürür. Düzdür, həmin maşın 2008-ci ildə alınıb. İstismar müddəti 10 il olsa da, icra başçısı Aqil Məmmədov həmin maşından yenə də istifadə edəcək".

Qeyd edək ki, bir neçə gün öncə rəsmi qəzetlərdə icra başçısı üçün avtomobil alınması ilə bağlı tender elan olunmuşdu. Həmin tenderdə "Mercedes S 350" markalı avtomobilin alınması nəzərdə tutulmuşdu. İcra başçısının bahalı avtomobil almaq istəyi müzakirələrə səbəb olmuşdu.

*Abil Bayramov: "Çünki həmin qurumların xərclədikləri vəsait həm də vətəndaşların ödədikləri vergilər hesabına formalaşan büdcədən götürülür"*

Daha sonra İcra Hakimiyyəti dövlət büdcəsindən xidməti avtomobil üçün 50-55 min manat vəsait nəzərdə tutulduğunu və "Mercedes S 350"nin son versiyasını deyil, işlənmişini almağı planladıqlarını açıqlamışdı.

Cəmi bir gün sonra isə İcra Hakimiyyəti "Mercedes S 350" niyyətini "Khazar Peugeot" ilə əvəzləyərək reallaşdırıb. Dövlət qurumlarına yerli istehsal olan avtomobillərdən istifadəni cənab Prezident də öz çıxışlarında tövsiyə edib. Dövlət qurumlarında yerli istehsal olan avtomobillərdən istifadənin nə kimi üstünlükləri var?

**Ekspert Abil Bayramov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, buna bütün qurumlar əməl etsə yaxşı olar:** "Həm israfın qarşısını alır, həm də yerli istehsala dəstək funksiyasını daşıyacaq. Bəzi qurumların buna əməl etməməsinin başlıca səbəbi ictimai hesabatlılığın olmamasıdır. Belə hesabatlığın olması bəzi israf hərəkətlərin qarşısını ala bilər. İctimai nəzarət çox vacibdir. Onların xərclədikləri vəsaitlərə ictimai nəzarətin həyata keçirilməsinə haqqı olan təbəqə elə sadə vətəndaşlardır. Çünki həmin qurumların xərclədikləri vəsait həm də vətəndaşların ödədikləri vergilər hesabına formalaşan büdcədən götürülür. Qurum rəhbərləri xərcləri müəyyənləşdirən zaman bu amilə xüsusi diqqət yetirməlidirlər. Əks halda, son prosesdə olduğu kimi, ictimai təpki baş verəcək və onlar geriyə addım atmağa məcbur olacaqlar. Yerli avtomobillərin alınması təqdir olunmalıdır. Amma yalnız bununla büdcəyə qənaətdən söhbət gedə bilməz. Çünki vəsait yalnız avtomobilə xərclənmir. İnventarların, mebellərin alınmasında da israfa yol vermək olmaz. Maksimum dərəcədə qənaət amilinə fikir verilməlidir. **Bundan əlavə, alınan yerli avtomobillərdən də səmərəli, səliqəli istifadə olunmalıdır. Bir daha vurğulayıram ki, burada büdcə vəsaitlərindən nə dərəcədə səmərəli istifadədən söhbət gedir".**

*Məhəmmədəli* **QƏRİBLİ**

# Əmlak sığortası ilə bağlı qanuni sanksiya sərtləşdirilir...

**Xəbər verildiyi kimi, icbari qaydada sığortalanmaya nəzarət gücləndiriləcək, daşınar və daşınmaz əmlakı icbari qaydada sığorta etdirməyənlər inzibati məsuliyyətə cəlb ediləcəklər. Bu, Nazirlər Kabinetinin sərəncamı ilə təsdiqlənmiş "Sığorta sektorunun inkişafına dair 2019-2021-ci illər üçün Tədbirlər Planı"nda əksini tapıb.**




Sənədə əsasən, Maliyyə Bazarlarına Nəzarət Palatası, Daxili İşlər Nazirliyi, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Gömrük Komitəsi, Fövqəladə Hallar Nazirliyi və yerli icra hakimiyyəti orqanları 2019-2020-ci illərdə İnzibati Xətalar Məcəlləsinə əsasən icbari qaydada sığorta müqaviləsi bağlamayan şəxslərin inzibati məsuliyyətə cəlb edilməsini təmin etməlidir.

Daşınar və daşınmaz əmlakını icbari qaydada sığorta etdirməyənlərin məsuliyyətə necə cəlb olunacağını və bu sahəyə nəzarətin hansı şəkildə tətbiq ediləcəyini öyrənmək məqsədilə mütəxəssislərə müraciət etdik.

*Xəyal Məmmədxanlı: "Daşınmaz əmlakın sığorta olunması məsələsi ilə bağlı qanun və cərimə olsa da, bu sahəyə nəzarət yetərincə deyil"*

**Sığorta sahəsi üzrə ekspert Xəyal Məmmədxanlı "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, daşınmaz əmlak məcburi qaydada sığortalanmalıdır.** Daşınmaz əmlak sığortalanmadığı halda, İnzibati Xətalar Məcəlləsinə əsasən müəyyən məbləğdə cərimələr nəzərdə tutulur: "Sadəcə, qeyd olunan qanunun icra mexanizmində çox ciddi xətalar var. Hüquqi şəxslərin əmlakının sığortası Fövqəladə Hallar Nazirliyinə tapşırılıb. Onlar bu sahəyə nəzarət edirlər, bu səbəbdən də hüquqi şəxslərin əmlakının sığortası var. Fiziki şəxslərin əmlakının sığortası isə yoxdur. Əmlakın alqı-satqısı zamanı məcburi şəkildə əmlak sığorta olunmalıdır. Bu səbəbdən də bəzi şəxslər çarəsizlikdən əmlakını sığortalayır. Fiziki şəxslərin 90 faizinin əmlakının sığortası yoxdur. Fiziki şəxslərin əmlakının sığorta olunması müvafiq yerli icra hakimiyyəti orqanına tapşırılıb. Təəssüf ki, yerli icra hakimiyyəti orqanları da əmlakın sığorta olunması məsələsinə nəzarət etmirlər".

*"Fiziki şəxslərin əmlakının sığorta olunması müvafiq yerli icra hakimiyyəti orqanına tapşırılsa da, bu sahəyə diqqət göstərmirlər"*

Həmsöhbətimiz onu da vurğuladı ki, daşınmaz əmlakın sığorta olunması məsələsi ilə bağlı qanun və cərimə olsa da, bu sahəyə nəzarət yetərincə deyil. Bu səbəbdən "Sığorta sektorunun inkişafına dair 2019-2021-ci illər üçün Tədbirlər Planı"nda nəzərə alınıb ki, bu sahəyə diqqət edib əmlakı sığorta etdirsinlər.

*Günel* **CƏLİLOVA**

Azərbaycan Mətbuat Şurası
MŞ
Azerbaijan Press Council

# Azərbaycanda dayanıqlı inkişafın əsas hərəkətverici qüvvələrindən biri - Dövlət Neft Fondu...

## *Çoxməqsədli suveren fond kimi özünü təsdiq etmiş ARDNF-in 20 illik aktivində nələr var...*

**Dünya dövlətlərinin müasir inkişaf mərhələsi iqtisadi müstəvidə tərəqqiyə, münasibətlərin qurulmasına artıq tam yeni bir yanaşma tərzi sərgilənməsi ilə müşayiət edilməkdədir. İlk növbədə o baxımdan ki, indiki dövrdə iqtisadiyyat özü konkret dövlətlərin əlində ən böyük güc vasitələrindən birinə çevrilib. Klassik deyimlə yanaşılsa, iqtisadiyyat artıq bazis yox, üstqurum səviyyəsinə yüksəlib.**

Elə bundan irəli gəlir ki, indi bir sıra dünya dövlətləri məhz iqtisadi metodlar vasitəsilə təzyiq alətlərini işə salıb istəklərinə nail olmağa çalışır. Müasir dünya qeyd olunan xüsusda modern nümunələrlə kifayət qədər zəngindir.

Məhz belə bir şəraitdə müstəqil, seçdiyi kursa uyğun inkişaf yolunda uğurla irəliləmək istəyən ölkələr qarşısında duran başlıca vəzifələrdən biri istənilən kənar iqtisadi təzyiqə sinə gərə bilmək, makroiqtisadi tarazlıq mühitini qorumaqdır. Bu kateqoriyaya daxil olan ölkələr uğurlu inkişafları ilə beynəlxalq miqyasda güclü müstəqil subyekt qismində çıxış etməyi layiqincə bacarır. Buna konkret misal qismində isə sürətli inkişafı ilə özünəməxsus model yarada bilən Azərbaycanı göstərmək mümkündür. Birmənalı həqiqətdir ki, Azərbaycanda mərhum prezident Heydər Əliyevin yaratmış olduğu mükəmməl inkişaf doktrinasının uğurlu tətbiqi nəticəsində ölkə iqtisadiyyatının yüksəlişi dönməz xarakter alıb. Bu əsasda Prezident İlham Əliyevin yaratdığı yeni makroiqtisadi platforma isə Azərbaycanın daha dinamik tərəqqisinə rəvac verib. Məsələnin bu tərəfinə nəzər salan ekspertlərin fikri bir məqamda uzlaşır ki, bu gün ölkəmizdə makroiqtisadi sabitliyin qorunub saxlanması, enerji, ərzaq və ekoloji təhlükəsizliyin təmin olunması, iqtisadiyyatın diversifikasiyası, bütün sahələrdə inkişaf strategiyasının uğurla həyata keçirilməsi nəticəsində indi Azərbaycan Cənubi Qafqazın lideri olmaqla yanaşı, həm də dünyanın ən sürətli inkişaf tempinə malik ölkələrindən biridir. Belə bir nəticənin əldə olunması isə heç də asan olmayıb, uzaqgörən siyasətin məntiqi nəticəsi kimi qiymətləndirilə bilər.

Məhz bu siyasət ölkənin təbii sərvətlərindən məharətlə faydalanmaqla müasir iqtisadi inkişafın əsaslarını yaradıb. Dünyanın bir çox ölkələri təbii sərvətlər baxımından Azərbaycandan xeyli zəngin olsalar da, onlarda ölkəmizdə qeydə alınan dinamik tərəqqi müşahidə olunmur. Bu da təbii sərvətlərdən istifadənin özünün nə dərəcədə böyük iqtisadi, siyasi peşəkarlıq tələb etdiyini aydın surətdə nümayiş etdirir. Azərbaycanda məhz təbii sərvətləri ölkənin inkişafına yönəldən strategiya sayəsində ölkənin təbii sərvətlərindən səmərəli istifadə mümkün oldu, bunun həyata keçirilməsi üçün ilkin mərhələdə Milli Neft Strategiyası hazırlandı. Sözügedən strategiyanın əsas məqsədi ölkənin malik olduğu təbii sərvətlərdən, ilk növbədə isə neft və qaz ehtiyatlarından xalqın rifahı naminə səmərəli istifadənin təmin edilməsindən ibarət idi. Fundamental əsaslara malik Milli Neft Strategiyasının özülündə duran başlıca məqamlar Azərbaycana xarici investisyanın cəlb olunması, müasir texnologiyanın ölkəyə gətirilməsi, şaxələndirilmiş ixrac sisteminin yaradılması idi. Bütün bunlardan sonra neft və qaz satışından əldə edilən gəlirlərin effektiv idarə edilməsi və istifadə olunması ən başlıca məqsədlər sırasında yer alırdı. Məhz bu hədəfə nail olmaq məqsədilə mərhum prezidentin müvafiq Fərmanı əsasında 1999-cu ildə ölkənin suveren fondu olan Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) əsası qoyuldu. Bu zaman həm ən qabaqcıl dünya təcrübəsi, həm də Azərbaycan şəraitinə uyğun reallıqlar nəzərə alındı. Ötən iyirmi il ərzində ARDNF-in ölkə iqtisadiyyatında, makroiqtisadi stabilliyin təminatında rolu onun yaradılmasının nə dərəcədə mühüm əhəmiyyət kəsb etdiyini aydın surətdə təsdiqlədi. Danılmaz həqiqətdir ki, ARDNF yaradıldığı vaxtdan indiyə qədər olan müddətdə Azərbaycan iqtisadiyyatının məhək daşlarından birini təşkil edir. Fəaliyyəti dövründə çoxməqsədli suveren fond kimi özünü təsdiq etməyi bacaran ARDNF bu gün də ölkədə makroiqtisadi sabitliyin təmin edilməsində mühüm rol oynayır, eyni zamanda Azərbaycan xalqının sərvətinin yığılmasını, səmərəli idarə edilməsini və gələcək nəsillər üçün saxlanılmasını təmin edir. Qurum, həmçinin, ölkənin iqtisadi inkişafını təmin etmək məqsədilə müxtəlif mühüm sosial iqtisadi layihələrin maliyyələşdirilməsini həyata keçirir. İlk mərhələdə ARDNF-in əsas gəlir mənbəyi neft və qazın satışından əldə olunurdusa, artıq bura digər gəlir mənbələri də əlavə edilib. Qurum uzunmüddətli investor kimi müxtəlif investisiya alətlərini özündə birləşdirən investisiya portfelinə malikdir. Ötən dövr ərzində müxtəlif istifqamətlərdə yatırılan sərmayələr, həmçinin valyuta ehtiyatlarının uğurla idarə edilməsi artıq ARDNF-in digər mənbələrdən də böyük həcmdə vəsait əldə etməsinə gətirib çıxarır. Elə bunun nəticəsidir ki, dünyada qlobal maliyyə böhranının təsirlərinin hələ də səngiməməsinə baxmayaraq, Azərbaycanın valyuta ehtiyatları artır.



Neft Fondunun icraçı direktoru Şahmar Mövsümovun bu xüsusda aşağıdakı fikirləri xüsusi diqqət cəlb edir: "2019-cu ilin ilk rübündə ARDNF-in aktivləri Fondun tarixində ilk dəfə olaraq 40 milyard ABŞ dollarını keçib. Belə ki, 2019-cu ilin 31 mart tarixinə Fondun aktivləri 2019-cu ilin əvvəlinə (38 515,2 milyon ABŞ dolları) nisbətən 4,56% artaraq 40 273,3 milyon ABŞ dollarına bərabər olub. Fondun aktivlərində artım əsasən Fondun büdcə gəlirləri, o cümlədən vəsaitlərin idarə edilməsindən əldə edilən gəlirlərin artması ilə bağlı olub. Neft Fondunun aktivlərinin artımı ölkə Prezidenti İlham Əliyevin həyata keçirdiyi və sosial-iqtisadi islahatların aparılması yolu ilə uzunmüddətli dayanıqlı iqtisadi artıma yönəldilmiş siyasətin tətbiqinin effektivliyini bir daha sübut edir". Onun sözlərinə görə, ARDNF neft və qaz satışından gəlir əldə etməklə yanaşı, uzunmüddətli investor kimi öz investisiya portfelinə yüksək gəlirliliyə malik aktivlər daxil etməyə başlayıb. Bununla bərabər, qurum daim qlobal bazarlarda baş verən prosesləri izləyir və eyni zamanda investisiya portfelinin şaxələndirilməsi və qiymət dəyişkənliyi risqinin azaldılması prinsiplərini öz fəaliyyətində rəhbər tutur: "2012-ci ildən etibarən qüvvəyə minmiş yeni investisiya siyasətinə əsasən isə ARDNF-in investisiya portfelinə daşınmaz əmlak və digər yeni investisiya alətləri daxil edilib. Sözügedən strategiyanın həyata keçirilməsində əsas hədəf ARDNF-in investisiya portfelinin müxtəlif maliyyə alətləri üzrə diversifikasiyası və gəlirliliyinin artırılması olub. Daşınmaz əmlak bazarının ümumi vəziyyətinin, eyni zamanda bu sahədə son trend və yeniliklərin araşdırılmasından sonra ARDNF-nin daşınmaz əmlak üzrə investisiya strategiyası illik əsasda yenilənir. 2019-cu il üzrə daşınmaz əmlak strategiyasına əsasən Fond Şimali Amerika, Avropa, Asiya və Sakit Okean hövzəsi regionlarında yerləşən bir sıra inkişaf etmiş ölkələrin müxtəlif tipli daşınmaz əmlak obyektlərinə birbaşa, müştərək və yaxud daşınmaz əmlak fondları vasitəsilə investisiyaları nəzərdə tutur".

Qeyd edək ki, daşınmaz əmlak obyektlərinə sərmayə qoyuluşu təcrübədə özünü kifayət qədər yüksək səviyyədə doğruldub. Məsələn, 2018-ci ilin nəticələrinə əsasən, ARDNF-in investisiya portfelinin gəlirliliyinə ən çox müsbət töhfə vermiş investisiyalar daşınmaz əmlak investisiyaları olub. 2018-ci ilin sonuna bu istiqamət üzrə müvafiq gəlirlilik 9,9% təşkil edib ki, bu da 2017-ci ilin müvafiq göstəricisi ilə müqayisədə 5,2% çoxdur. Neft və qaz satışından, yatırılan investisyalardan, vəsaitlərin əldə olunmasından gələn gəlirlər isə Azərbaycanın inkişafı məqsədilə uğurla istifadə olunur. Məsələn, faktdır ki, ölkədə genişmiqyaslı infrastruktur layihələrinin reallaşmasında, eləcə də qeyri-neft sektorunun inkişaf etdirilməsinə xidmət edən digər işlərin görülməsində ARDNF-dən büdcəyə ayrılan vəsaitlər xüsusi əhəmiyyətə malikdir. Aparılan hesablamalar göstərir ki, 2001-ci ildən cari il martın 31-dək ARDNF 100 milyard dollardan çox vəsaiti ölkənin sosial-iqtisadi tərəqqisi naminə ən mühüm məsələlərin həllinə, strateji əhəmiyyətli infrastruktur obyektlərinin inşası və yenidən qurulması üzrə layihələrin maliyyələşdirilməsinə yönəldilib, dövlət büdcəsinə böyük həcmdə vəsait transfert edilib. Bu dövr ərzində ən ağır şəraitdə yaşayan qaçqın və məcburi köçkünlərin sosial-məskunlaşma məsələlərinin həlli ilə bağlı tədbirlərin maliyyələşdirilməsinə ARDNF 2,32 milyard manat sərf edib. Məhz həmin vəsaitlər hesabına qaçqın və məcburi köçkünlər üçün 100-dən çox yaşayış qəsəbəsi tikilib, onların sosial-məişət vəziyyəti yaxşılaşdırılıb.

Fondun maliyyələşdirdiyi layihələr sırasında Bakının su təchizatı ilə bağlı problemlərinin əsaslı şəkildə həllini təmin edən Oğuz-Qəbələ zonasından paytaxta su kəmərinin çəkilməsi və Samur-Abşeron suvarma sisteminin yenidən qurulması layihələri mühüm yer tutub. ARDNF Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramının maliyyələşdirilməsinə 212,7 milyon manat sərf edib ki, bununla da Azərbaycana minlərlə ən müasir tələblərə cavab verən mütəxəssis qazandırıb. Bütün bunlar qurum tərfindən ayrılan vəsaitlərin Azərbaycanın sosial-iqtisadi inkiaşfında hansı mühüm əhəmiyyət kəsb etdiyini aydın surətdə nümayiş etdirir.

ARDNF-in maliyyələşdirdiyi digər layihələr isə qarşıdakı dövr ərzində Azərbaycanın sosial-iqtisadi tərəqqisinə daha böyük töhfələr verməkdə davam edəcək. Qurumun sərmayə yatırdığı belə layihələrə misal olaraq Bakı-Tiflis-Ceyhan əsas ixrac boru kəmərini, Azərbaycan təbii qazının Avropaya nəqlini nəzərdə tutan Cənub Qaz Dəhlizini, Türkiyədə "Star" neft emalı kompleksinin tikintisini, Bakı-Tiflis-Qars dəmir yolu xətti layihəsini göstərmək olar ki, bu layihələrin ərsəyə gəlməsinin Azərbaycana uzun illər ərzində böyük dividendlər qazandıracağı şübhə doğurmur. Ölkədə maliyyə sabitlyinin təmin edilməsində də ARDNF vacib rol oynayır. Onun valyuta hərraclarında uğurlu əməliyyatları bu gün manatın sabitlyində heç də az rol oynamır. Bütün bu qeyd edilənlər ARDNF-in suveren fond kimi ölkənin iqtisadi inkişafında, makroiqtisadi stabilliyin təminatında hansı mühüm missiyalar həyata keçirdyini aydın surətdə nümayiş etdirir.

***Samirə SƏFƏROVA***

**ARDNF və Azərbaycan Mətbuat Şurasının ARDNF-in yaradılmasının 20-ci ildönümü münasibətilə "Suveren fondların inkişaf etməkdə olan ölkələrin iqtisadiyyatında rolu: Azərbaycan Respublikası Dövlət Neft Fondunun timsalında" mövzusunda keçirdiyi müsabiqəyə təqdim olunur.**

# Bakı kəndləri - tarixlərə şahid qədim Qala kəndi...

*”Hər bir xalqın mədəni irsi onun milli sərvəti, tarixi və bu günüdür. Bizim borcumuz, gələcək nəsillərin borcu tarixi keçmişimizə, ənənələrimizə, milli nailiyyətlərimizə hörmət etməkdən, onları qoruyub saxlamaqdan ibarətdir”.*

***Heydər Əliyev***

**Abşeronda təqribi hesablamalara görə 1500-ə qədər coğrafi yer adı var. Bunların 80 faizi passiv fondu təşkil edir. Qala kəndinin yaşayış məskəni kimi adı birbaşa "qala" sözü ilə strateji tarixi-memarlıq tikilisi ilə əlaqədardır."Qala" toponiminin ilk baxışda sadə görünən izahı bir tərəfdən arxeoloji faktlara, digər tərəfdən isə xalq etimologiyasına əsaslanır.**

Yaşlı sakinlərin bəziləri kəndin adını"mühafizə olunan yer" kimi mənalandırır, başqa sözlə, alınmaz, məğlubedilməz yer, kənd, yaşayış məskəni.

Arxeoloji qazıntılar da sübut edir ki, ərazidə eramızdan əvvəl III minillikdən etibarən yaşayış mövcud olub. Buradan maddi-mədəniyyət qalıqlarının I mərhələsi e.ə. III minillikdən eramızın IX əsrinə,II mərhələsi isə bizim eranın X-XIX əsrlərini əhatə edir. XIX əsrdən Qala kəndi 7 hissədən ibarət olub: Qala kəndinin özü, Şəburi-Şəhri Şaburi (indiki aeroport yaxınlığı), Kələdağ (kələdağ-qışlaq yeri), Şüvəlan (bağ yerləri), Qala tut ağacı, yaxud Binə görünən (Binə tərəfdə), Türkanyanı torpaqlar, Pirxəxir (Hövsan həndəvəri). Bundan əlavə, Xoşxonə (Xakixanə), Qərəcə, Dərəçal, Əlcəki və Parağat (Farağat) bağları da Qala kəndinə daxil idi.

Qala kəndində əhalinin əsas təsərrüfat məşğuliyyəti heyvandarlıq (başlıca olaraq qoyunçuluq), əkinçilik, sənətkarlıq (o cümlədən xalçaçılıq) və kustur üsulla duz istehsalı olub. Bu kənd həm də qədim ticarət mərkəzlərindən biri idi. Abşeronun karvan ticarətində Qala kəndi həmişə əhəmiyyətli rol oynayıb. Bundan əlavə, Qala kəndi Pirallahı limanı vasitəsilə istər Bakı, istərsə də Azərbaycanın digər bölgələri ilə ən intensiv ticarət əlaqələrinə malik idi.

Vaxtilə yerli əhalinin bir qismi özünü tat, digər qismi isə tərəkəmə adlandırardı. Qala kəndinin meydanları və məhəllələri də məşhur olub. Bunlardan Hacı Ramazan meydanı, habelə Şıxlar, Qala dibi, Pirvənzəri, Çəmbərəkənd, Tucuğlar (Tocuqlu) məhəllələrini göstərmək olar.

Qalada istər tarixi, istərsə də sosial mədəniyyət əhəmiyyəti daşıyan tarixi-memarlıq abidələri və tarixi tikililər dövlət qeydiyyatına alınaraq maddi-mədəni irs nümunələri kimi dövlət tərəfindən qorunur.

Abşeronun heç bir kəndində burada olduğu qədər məscid yoxdur: onların sayı altıdır. Bunlar cümə və məhəllə məscidləridir. Bu məscidlərdən birini Məşədi Süleyman, digərini Əlqulu Əlyar, bir başqasını Hacıbaba və başqaları tikdirib. Bəzi məscidlər məhəllə adı ilə adlanırdı: Çəmbərəkənd məscidi, Tərəkəmə məscidi. Məscidin baş xidmətkarına "şıx" (yəni şeyx-red) deyilirdi. Kənddə 2 mollaxana, 2 qibləgah da mövcud olub.

Qala kəndində mövcud hamamlardan biri də"Şor hamamı"adlanırdı. Bu hamam kəndin cənub hissəsində, duz gölünün yaxınlığında yerləşirdi. Hamamın suyu duzlu olduğundan ondan müalicəvi məqsəd üçün istifadə olunurdu. 2016-cı ildə orada"İçərişəhər" DTMQ İdarəsi və "Qala" DTEQ tərəfindən "Şor hamam"da mədəni irs abidəsi kimi arxeoloji qazıntı işləri görülüb, mövcud hamamın tikili qalıqları aşkar olunub, foto-fiksiya işləri aparılıb. Mədəni tarixi irs abidəsinin arxeoloji qazıntı işləri nəticəsində aşkar olunmuş tarixi tikinti qalıqlarının konservasiya olunması, buklet nəşr olunması, turist marşrutlarına salınması, son orta əsr sosial tarixi məişət abidəsi kimi təbliğ olunması burada qədim Qala kəndində turizmin aparıcı sahələrindən hesab olunan etnoturizmin, aqroturizmin, kənd turizminin inkişaf etdirmək zərurərini doğurur.

Suyu şor olan hamamlardan biri də İmaməli hamamı idi. Əhədəli hamamının suyu isə cox şor olmayıb. Kənddə olan hamamlardan biri də hazırda öz təyinatına uyğun olaraq fəaliyyət göstərir. Bu hamam cox vaxt "Cümə hamamı", yaxud hamamı inşaat etdirənin adı ilə "Bayraməli hamamı"adlanır. Hamamın giriş hissəsindəki epiqrafik yazıdan məlum olur ki, hamam 1881-ci ildə inşa olunub. Qala kəndində yerləşən hamamların hamısında vacubatxana olub.

Qala kəndinin su ilə təminatında, su çıxarılmasında müxtəlif üsullar tətbiq olunurdu: adi iplə dartma, mancanaq, dolamaçarx, kəlləçarx, dolbağara. Dolbağara ilə toplanan su ağır olduğundan onu quyudan at və ya eşşəklə çəkib çıxararaq əkin üçün istifadə edirdilər.

Kəhriz Qala kəndinə Qurat bağlarından, Xəşəxuna bağlarının 150-200 metrlik şimal istiqamətindən çəkilmişdi. Kəhriz çəkmək üçün ilk olaraq "gumana" quyusu qazılır. Qala kəhrizi sistemində hər 50 metr məsafədə bir ədəd olmaqla 17 quyu qazılmışdı. Bu quyuların suyu yeraltı basdırılmış təqribən 70-120 sm dərinlikdə saxsı borularla - tünglərlə biri-birinə birləşərək kəndə çatdırılırdı. Təqribən 50-70 sm uzunluğunda saxsı tüng boruların diametri iki yarım, üç düym təşkil edirdi. Borular bir-birinə geydirildiyindən bir başı gen, digər başı isə dar diametrdə olurdu. Kəhrizdən suyun axıdılması üçün heç bir mexaniki üsul və ya vasitədən istifadə olunmurdu. Başqa sözlə, kəhriz sistemi ancaq yerin səthi quruluşu nəzərə alınmaqla xalq empirik təcrübəsinə əsaslanan kəhrizçilər tərəfindən inşa olunurdu. Kəhriz suyu su hövzəsinə (belə su hövzələrinin sayı 10 idi) toplanır və buradan götürülərək istifadə olunurdu.Yolu tutulmasın deyə kəhriz boruları müntəzəm olaraq kəhrizçilər tərəfindən təmizlənir, quyuların su norması nəzarətdə saxlanırdı.

1842-ci ildə Abşerona səyahət etmiş səyyah İ.Beryozin bir sıra kəndlərin əhalisi barədə məlumat verir. Həmin məlumata görə, 1842-ci ildə Maştağa kəndində 3600 əhali yaşayırdı. Qala, Suraxanı, Balaxanı, Novxanı, Nardaran kəndi də





böyük kəndlərdən sayılırdı; onların hər birində əhalinin sayı 1000-dən yuxarı idi.

Əhalinin məşğuliyyəti.Yarımada öz coğrafi xüsusiyyətlərinə görə Azərbaycanın digər mikrozonalarına görə müəyyən qədər sərt iqlimə malikdir. Lakin bu amil heç də əhalinin ənənəvi məşğuliyyət növlərinin inkişafına təsir etməyib. Abşeronun ağ və qara şanısı, sarı ənciri, püstəsi, Şıxverdi soğanı (adətən Hövsan soğanı adlanır), zəfəranı, yemişi, qarpızı, Qala qoyunu və s-nin geniş şöhrət tapdığı yerdir Qala kəndi.

Arxeoloji qazıntılar göstərir ki, Azərbaycanın hər yerində olduğu kimi, Abşeron yarımadasında da artıq Neolit (yeni daş) dövründə əkinçilik təsərrüfatı xeyli inkişaf edib. Bu dövrdə başlıca əmək alətləri daşdan hazırlanırdı. Tunc dövrünə, yəni e.ə. III minilliyə kimi toxa əkinçiliyi hökmran olub. Tunc dövründə isə artıq qoşqu heyvanlarının gücündən istifadə olunmaqla cüt əkinçiliyinə keçilib.

Yunan coğrafiyaşünası Strabon yazırdı ki, Albaniya torpaqları çox münbitdir. Belə ki, torpaqdan ildə 2 dəfə, hətta 3 dəfə məhsul götürmək olar. O zamanlar adətən dənli bitkilər, o cümlədən arpa, buğda və s.əkilirdi. Qədim və orta əsrlərdə, sonrakı dövrdə, ümumiyyətlə Azərbaycanda taxılçılıq aparıcı sahələrdən biri olub.

XIX və XX əsrin əvvəlində Azərbaycanda ənənəvi kənd təsərrüfatı alətləri, o cümlədən qara kotan, dəmir gavahınlı xış, ağac mallar: bel, oraq, çin, vəl, dəryaz, yaba, şana, kürək, dırmıx və s. ilə yanaşı, qismən də olsa, fabrik istehsalı olan kotan, taxıldöyən, taxılsəpən, taxılsovuran, küləşdoğrayan, dərzbağlayan və s. kənd təsərrüfatı maşınları da tətbiq olunurdu.

Abşeron torpaqları öz təbii-geoloji xüsusiyyətlərinə görə son dərəcə rəngarəngdir. Burada münbit boz-qara qumluq torpaq sahələrinə, həmçinin qırmızımtıl, sarı gil rəngli və əkin üçün müxtəlif keyfiyyətli torpaqlara təsadüf olunur. Abşeronda belə torpaqlar "sarı torpaq" adlanırdı.

Əksər əkin sahələri kəndlərin ətrafında yerləşirdi. Belə münbit əkin sahələrindən Şağan kəndinin Banağan, Təmənnis və çöl bağları, Məhəmmədlinin qara arpa yerlərini, Buzovnanın qara torpaq, Qala kəndinin Qərəcə, Balaxanının Pirqübbə, Biləcərinin Arxlar, Xocahəsənin barı, qayadibi, qayadöşü, xanlıq yerləri, Binəqədinin Maralan, Binənin Hacə Mövlam zəmisi, Bilgəhin Müşgürlü (yaxud Miskinli), Qaley-pur (Qullei-pur), Sarayın dağ bostanı, dərəzəmi, Mərdəkanın dənli, Fatmayının, həmçinin Göradilin, Kürdəxanın yelkən zəmi və s.əkin yerlərini göstərmək olar.

Əkinçilik ixtisaslaşması, həmçinin məhsulların keyfiyyəti, növü, kəmiyyəti elə bir vəziyyət yaratmışdı ki, bir çox məhsullar ayrı-ayrı kəndlərin adları ilə adlandırılırdı. Məsələn, Bilgəh kökü və sarımsağı, Zirə qarpızı və cirəsi, Hövsan soğanı, Binə qovunu ilə bütün Abşeronda məşhur idi. Bütün Bakı-Abşeron zonasında "Şıxverdi soğanı"adı ilə məşhur olan Hövsan soğanı haqqında etnoqraf Q.Cavadov "Əkinçilik mədəniyyətinin sorağı ilə" kitabında belə məlumat verir:"XIX əsrin sonlarında S.Zelenski adlı bir rus müəllifi "Qafqaz kənd təsərrüfatı" adlı qəzetdə (1897-ci ildə,№ 203) yazırdı ki, Bakının Hövsan,Türkan, Qala kəndlərində xörəyə özünəməxsus dad verən əvəzsiz soğan növü becərilir. Həmin soğan yerlilər arasında "Şıxverdi soğanı"adlanırdı".

Köhnə əkinçilərin dediyinə görə, Qala kəndində 2 növ buğda əkilərmiş: xırda Bakı buğdası və iri dənəvər Rusiya buğdası. Bakı buğdası dadlı və şirin olurdu. Buna görə də bu buğdadan bişirilən çörək və çörək məmulatı çox dadlı olardı. Səmənini ancaq Bakı buğdasından qoyardılar. Təcrübəli əkinçilərin dediyinə görə, səpilən hər kiloqram buğdadan ən azı bir neçə dəfə çox məhsul götürülərmiş. Bol məhsul alınması üçün torpaq bir neçə dəfə yaxşı şumlanmalı idi: 1-şum, 2-düxış, 3-səxış, 4-caharxış. Mal-qaranın yemlənməsi üçün Qala kəndində qara arpa əkilərdi. Kəblə Paşa, Kəblə Yusif, Xeyrulla, Kərim kimi təcrübəli əkinçilər əkin-biçinin "dilinə" yaxşı bələd idilər. Qala kəndində zəfərançılıq da inkişaf etmişdi. Zəfəran bağçaları kəndin gilavar əsən tərəfində idi. Kənd sakinlərindən Hadinin, Mehdinin və başqalarının zəfəran baxçaları var idi. Qala kəndində qarğıdalı, bərk, əzilməyən Qala pomidoru, Hövsan soğanı, kudu, lobya, qarpız, qovun və s. bostan bitkiləri əkilərdi.

İndiyə qədər Zirə, Qala və Şağanın qarpızı, Binə və Türkanın "ağ qovunu", Zirə və Mərdəkanın "qara qovunu", Corat və Şağanın "axund tumu" qovunu, Qala kəndində becərilən şamama adladır. Etnoqraflardan akademik T.Bünyadov, S.Quliyev, Q.Cavadov yazırdılar ki, Abşeronun Qala qarpızı öz dadına və şirinliyinə görə Sabirabad qarpızından heç də geri qalmırdı.

Abşeronda 50-dən çox yemiş növü becərilib. Burada daha çox "axund tumu", "Saray tumu", "Gərmək", "dəvə dabanı", "Ağ qovun", "Qara qovun", "Məkkə tumu", "İrəvan gögü", Sarı və ağ "sami", "Abşeron gözəli" və s. kimi qovun və yemiş növləri əkilib.

Bağçılıq ənənələrinin qədimliyi Abşeron üçün səciyyəvi olan bir sıra meyvə və üzüm növlərinin meydana gəlməsinə səbəb olub. Bunlardan sarı əncir, göy əncir, qara əncir, Bakı heyvası, hulu, bəzi qaysı növləri, həmçinin üzüm növlərindən: qara şanı, ağ şanı, sarıgilə, xatuni, pişraz (ağ, qara, göy), göybəndəm, keçiəmcəyi, gəlinbarmağı, qızıl üzüm, kişmişi, Səlyani, Dərbəndi (ağ və qara) Zabrat, Sabunçu, Saray sarıgiləsi, Buzovna xatunisi, Şabrani (burada qoyun gözü), ağadayı, şireyi, ağ gavangir, göy gavangir, qara gavangir, xırdagilə, sarı xatuni, göy xatuni, kələ kişmişi, xalbəsər, mövücü, dəvə gözü (yaxud sirkeyi), çahar üzüm, sıx salxım, əskəri, kəmər barik, gülabi, pitumi, duxşeyi(turş meyi) və s.qeyd etmek olar.

***Elxan MƏMMƏDOV***
***Tarixçi***

***(Ardı növbəti saylarımızda)***

**Saxta diplom məsələsi cəmiyyətin problemlərindən biri olaraq qalır. Bu hala qarşı aidiyyəti qurumlar davamlı mübarizə aparsalar da, hələ də bu neqativ halın qarşısını tam olaraq ala bilməyiblər. Bu gün müxtəlif müəssisələrdə, o cümlədən də səhiyyə ocaqlarında saxta diplomla çalışanların olduğu bildirilir.**

# Səhiyyəmizdə saxta diplomlar məsələsi yenidən gündəmdə...

Səhiyyə Nazirliyinin Hüquq və daxili nəzarət sektorundan mətbuata verilən məlumata görə, Səhiyyə Nazirliyi, ümumilikdə, 23 saxta diplom aşkarlayıb. Məlumatlara görə, təkcə 2018-ci ildə nazirlik tərəfindən 19 saxta diplom müəyyənləşdirilib.

Bundan əlavə, nazirlikdən 2019-cu ilin ilk 3 ayı ərzində 4 saxta diplom aşkar edildiyi və aşkarlanmış saxta diplomlarla bağlı Baş Prokurorluğa müraciət olunduğu bildirilib.

Saxta diplomlar necə əldə edilə bilər?

**Tanınmış səhiyyə mütəxəssisi, professor Adil Qeybullanın "Bakı-Xəbər"ə bildirdiyinə görə, diplom o halda saxta sayıla bilər ki, vətəndaş heç bir ali məktəbdə təhsil almadan müxtəlif neqativ yollarla bu diplomu əldə edir.** A.Qeybulla dedi ki, Azərbaycanda tibb təhsili verən müəssisələrin diplomları Təhsil Nazirliyi tərəfindən təsdiqlənir, bu halda onların bu diplomu ölkəmizdə əldə etmədiyi məlum olur. "Əslində, Azərbaycan ərazisində istər Təhsil Nazirliyinin, istərsə də Səhiyyə Nazirliyinin lisenziyası əsasında fəaliyyət göstərən ali və orta tibb təhsili müəssisələri var. Bu müəssisələrin qanuni diplomunu alan şəxslər təbii ki, ölkə daxilində işlə təmin olunmalıdırlar. Xaricdə təhsil alıb ölkəmizə gələn şəxslərin təhsil aldıqları ali məktəblərin diplomlarının qəbul edilməsi reyestri var. Xaricdə təhsil alıb gələnlər həmin diplomu Təhsil Nazirliyinə təqdim edir və nazirlikdə həmin diplom təsdiq olunur. Təbii ki, həmin diplom onu verən təhsil ocağında təsdiqlənməlidir. Beynəlxalq Haaqa Konvensiyasının şərtlərinə görə, həmim müəssisədə qeydiyyatda olmalıdır. Bundan sonra diplom artıq ölkədə fəaliyyət göstərə bilir. Diplomlar bu parametrlərə uyğun olmayanda tibb müəssisələri həmin şəxsi işə qəbul etməməlidirlər. Söhbət ondan gedir. Yəni verildiyi ali məktəbdə qeydiyyatda olmayan diplom hüquqi qüvvəyə malik deyil. Biri də var ki, diplom heç bir ali məktəbdə təhsil almayan şəxsə verilib, bu artıq saxta diplomdur. Həqiqiliyi təsdiq olunmamış, verildiyi yerdə qeydiyyata alınmamış və ölkədə reyestrdən keçməmiş diplomlar heç bir hüquqi qüvvəyə malik ola bilməz. Ancaq bu o demək deyil ki, o diplom saxtadır. Saxta sözü o diploma aiddir ki, o heç bir yerdə təhsil almayan şəxsə verilib. Bu, saxta diplomdur. Amma ratifikasiya olunmamış, reyestrdən keçməmiş diplomlardan söhbət gedirsə, onlar saxta diplomlar sayılmır" -deyə A.Qeybulla bildirdi.

**Tanınmış təhsil eksperti Kamran Əsədovun sözlərinə görə, bu gün Azərbaycanda saxta diplom problemi var.** "Saxta diplomların əsasən köçürmələrlə bağlı olduğunu da qeyd etmək lazımdır. Azərbaycanda keçirilən qəbul imtahanında keçid balını toplaya bilməyən gənc xarici ölkələrin, xüsusən də Rusiya, Ukrayna, Gürcüstan və Türkiyə universitetlərinə saxta yolla qəbul olunur, sonra isə Azərbaycanın dövlət universitetlərinə və ya rayon filiallarında birbaşa 2-ci kursa qəbul olunurdular.

Xatırladım ki, Azərbaycan Beynəlxalq Universitetinin tədrisinin təşkilindəki problemlər, qanunsuz tələbə köçürmələri və digər nöqsanlara görə bağlanandan sonra həmin ali məktəbin diplomları qəbul olunmadı, məhkəmə prosesi hələ də bu günə kimi davam edir. Misir Mərdanovun nazir olduğu dövrdə bir neçə müəllim işdən azad olundu. Amma məhkəmə bunları yenidən bərpa etdi. Saxta diplom məsələsinin başlıca səbəbi cəzasızlıqdan qaynaqlanır. Hər hansı universitetin rektoru və ya nazirlikdən kiminsə mövcud səbəbə görə cəza aldığı ilə bağlı konkret rəsmi məlumat verilməyib. Məhz "cəzasızlıq sindromu"na görə bu kimi hallar baş verir. Sovet dövründə Pedaqoji Kadrların İxtisasartırma və Yenidən Hazırlama İnstitutu var idi, sonradan bu institutun xarakteri dəyişilərək Azərbaycan Müəllimlər İnstitutu statusu aldı. Bu azmiş kimi, bu institutun bölgələrdə 11 filialı yaradıldı, o cümlədən də Gəncədə. Bir müddət sonra burada böyük korrupsiya faktları aşkarlandı, bir neçə filial bağlandı və belə bir mənzərə ortaya çıxdı. 2015-ci ildə Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Müəllimlər İnstitutunun Azərbaycan Dövlət Pedaqoji Universitetinə qoşulması barədə sərəncam imzaladı və belə deyək ki, diplom istehsal edən ən böyük müəssisə fəaliyyətini dayandırdı.

Təhsil Nazirliyində Nostrifikasiya şöbəsində diplomların tanınması rəsmi qeydiyyata alınır, nazirlik hansısa bir xarici ölkədən gələn diplom üçün həmin universitetə sorğu göndərir, dəqiqləşdirmə aparılır. İnstitutun lisenziyası yoxdursa və ya nostrifikasiyadan keçməyibsə, saxta hesab olunur. Saxta anlayışda var ki, möhür saxtadır və ya imza saxtadır. Bununla əlaqədar müəyyən qurumlar fəaliyyət göstərir və bu iş daim nəzarətdədir. Amma bir məqam da var ki, bəzi hallarda Təhsil Nazirliyində Nostrifikasiya şöbəsinin təsdiqi ilə də saxta diplomlardan əmək bazarında istifadə olunur".




**Adil Qeybulla:** *"Həqiqiliyi təsdiq olunmamış, verildiyi yerdə qeydiyyata alınmamış və ölkədə reyestrdən keçməmiş diplomlar heç bir hüquqi qüvvəyə malik ola bilməz"*

**Kamran Əsədov:** *"Hesab edirəm ki, elektron baza olmalıdır"*

K.Əsədov qeyd etdi ki, ölkəmiz müstəqillik əldə etdikdən sonra ölkənin sosial- iqtisadi sahəsində olduğu kimi, təhsil sahəsində də müəyyən boşluqlar əmələ gəldi. O vurğuladı ki, təhsil qanununun qəbul olunması 15 ilə qədər ləngidi. Digər normativ-hüquqi baza yaradılması istiqamətində lazımi iş aparılmadı. "Fürsətdən istifadə olunub, 70-dən artıq ali və orta təhsil müəssisəsi yaradıldı və bu müəssisələrin əksəriyyəti özəl oldu. Onların hər hansı bir bazası formalaşmadı. Ona görə də qanunvericilikdə olan müəyyən boşluqlar bu təhsil müəssisələrində saxtarkarlıq elementlərinin baş verməsinə şərait yaratdı. Özəl ali məktəblərdə islahatlara start verildi. Bir neçə universitet - Azərbaycan Beynəlxalq Universiteti, Təfəkkür Universiteti, Moskva Açıq Universiteti bağlandı. Bu sahədə rasionallaşma, optimallaşma baxımından tədbirlər həyata keçirilir. Bir sıra universitetlər bağlanır, digərləri birləşir, kolleclər universitetlərin nəzdinə verilir. Bu hərəkətlilik və dəyişikliklər müəyyən vaxtlarda boşluqlar yaradır və bundan istifadə edənlər saxta diplomlar hazırlayıb kimlərəsə verirlər. Belə bir "xroniki xəstəliyi" birdən-birə aradan qaldırmaq mümkünsüz dərəcədə çətin bir şeydir. Əvvəllər mətbuat, internet belə geniş səs-küy salmırdı.

Burada mətbuatın rolu böyükdür. Korrupsiya, saxtakarlıq halları mətbuat tərəfindən qabardıldı, bu məsələ yüksək səviyyələrə qədər qaldırıldı. Mətbuatın rolu olmasaydı, ictimaiyyət təpkisi olmasaydı, bu proses hələ də çiçəklənməkdə davam edəcəkdi. Bundan başqa, hesab edirəm ki, elektron baza olmalıdır. Hər bir işəgötürən işçini qəbul etdikdən sonra rahatlıqla həmin portala daxil olub verilmiş diplomun həqiqi, yoxsa saxta olduğunu yoxlamalıdır" - deyə mütəxəssis bildirdi.

***İradə SARIYEVA***

№ 115 (4013) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

3 İYUL 2019-cu il

# Süni intellekt üçün testlәr hazırlanacaq

**Qırx texnoloji şirkәtin, o cümlәdәn "Facebook", "Google" vә s. daxil olduğu "MLPerf" konsorsiumu süni intellektin testi üçün qiymәtlәndirmә metodikası vә kriterilәr dәsti hazırlamaq niyyәtindәdir.**



Bu kateqoriyalar üzrә süni intellekt mәhsullarını ölçәn şirkәtlәr onlar üçün optimal hәlləri, tәlim texnologiyalarını vә s. müәyyәnlәşdirә bilәcәklәr. "ICTnews" bildirir ki, "MLPerf Inference v0.5" adlanan bençmarklar diqqәti üç ümumi kompüter tәlimi tapşırığına yönәldәcәk: tәsvirlәrin tanınması, obyektlәrin aşkarlanması vә tәrcümәlәr sistemi. Müxtәlif qurğularda müxtәlif mәlumat emalı imkanlarını nәzәrә alaraq smartfon, server vә çiplәr kimi fәrqli platformalarda süni intellekt üçün ayrı-ayrı testlәr mövcuddur. "MLPerf" konsorsiumunun baş direktoru Piter Mettson qeyd edib ki, süni intellektin qiymәtlәndirmә kriterilәrinin formalaşdırılması real vәziyyәtlәrdә yeni kompüter tәlimi proqram platformalarının, aparat sürәtlәndiricilәrinin vә "bulud" vә periferiya hesablama platformalarının qiymәtlәndirilmәsi üçün standartlar yaradacaq. Bu, hәmçinin kiçik şirkәtlәrin istifadә edә bilәcәyi bәrabәr şәraiti yaradacaq. Bundan başqa, standartlaşdırma süni intellekt sistemlәrinin hazırlanmasını sürәtlәndirәcәk vә onu lazımi sәmtә yönәldәcәk.

**Hazırda "MLPerf Inference v0.5" bençmarklarında tәtbiq edilәn texniki xüsusiyyәtlәr barәdә mәlumat verilmir. Bundan әlavә, testlәr dәstinin nә vaxt satışa çıxarılacağı vә ondan kommersiya strukturlarının nә vaxt istifadә edәcәyi açıqlanmır. Lakin belә alәtin yaradılması faktı onu göstәrir ki, tәrtibatçılar süni intellekt sistemlәri üçün perspektiv görürlәr.**

## Elan

Abşeron rayon Aqrar islahat komissiyasının 28.01.2005 tarixli, 56 saylı qәrarı ilә Hökmәli kәnd sakini Mahmudova Rәsmiyyә Cәfәr qızına verilmiş 0.09 ha torpağın mülkiyyәt şәhadәtnamәsi itdiyi üçün etibarsız sayılır.

Şәki şәhәr sakini Bәybalayeva Mәlakә Cәbrayıl qızının adına verilmiş 6783 / 1183 saylı ev qeydiyyat vәsiqәsi itdiyi üçün etibarsız sayılır.

Ağazadә Babәk Adışirin oğluna mәxsus, Bakı şәhәri, Binәqәdi rayonu, 8-ci mikrorayon, Azadlıq prospekti, ev № 22/182, mәnzil № 83 ünvanının qeydiyyat vәsiqәsi (çıxarış) itdiyi üçün etibarsız sayılır.

Mәmmәdova Zәrifә Mәmmәd Hüseyn qızına mәxsus, Bakı şәhәri, "Vişnyovka" bağlar massivindә yerlәşәn № 239 bağın 20 iyul 2001-ci il tarixli №5099 müqavilәsi itdiyi üçün etibarsız sayılır.

İsmayılov Vüqar Əli oğluna mәxsus, Bakı şәhәri, Xәtai rayonu, General Şıxlınski küçәsi, ev №30, mәnzil № 61 ünvanının (№ 0380262) HDQHDƏDR tәrәfindәn verilmiş çıxarışı itdiyi üçün etibarsız sayılır.

Şirinova Xanım Yavәr qızına Qobu bәlәdiyyәsinin 30.11.2007-ci il tarixli, 28№-li qәrarı ilә verilmiş 0.10 ha torpaq sahәsinin alqı-satqısına dair akt, qәbzi vә keçmiş DTXK tәrәfindәn verilmiş 01.04.2011-ci il tarixli, A №330575, kod 30800076000777 plan vә ölçüsü rәyi vә digәr sәnәdlәr itdiyi üçün etibarsız sayılır.

Babayev Atif Bәymәmmәd oğlunun adına, Bakı şәhәri, Suraxanı rayonu, Bülbülә qәsәbәsi, Mövsüm Bәydәmirov küçәsi, döngә 6, №8 fәrdi yaşayış ünvanına verilmiş çıxarış vә texniki pasport itdiyi üçün etibarsız sayılır.

Muradova Rәna Əlirza qızının adına, Bakı şәhәri, Yasamal rayonu, Yeni Yasamal yaşayış massivindә yerlәşәn 2-ci blok, 4-cü mәrtәbә, mәnzil 89 ünvanının orderi itdiyi üçün etibarsız sayılır.



# Yeni pivә növü icad edildi - iysiz, spirtsiz, vitaminlәrlә zәngin...

**Rusiya alimlәri alkoqolsuz yeni pivә resepti icad ediblәr. "Medicina.az" bildirir ki, bu pivәnin digәr spirtli içkilәrdәn fәrqi tәrkibinin alkoqolsuz vә vitaminlәrlә zәngin olmasıdır.**

Hәmçinin bu yeni pivә iysiz vә vitaminlәrlә zәngindir. Pivәnin digәr bir üstünlüyü isә bu yeni pivәnin tәrkibindә kudzu kökü vә yosun xlorelası olduğu üçün içkinin qәbulundan sonra baş ağrısı baş vermir. "Bu maddәlәrin çox güclü antioksidant tәsiri var.

Bu yeni pivә hәtta xәrçәng vә yaşlanmanın da qarşısını alır.

**Bu maddәlәri mәhlulun içinә әlavә etsәk, spirtin zәhәrli tәsirini azaldacaq vә pivәni daha sağlam edәcәk "- Ural Federal Universitetinin Üzvi Sintez Texnologiyası kafedrasının professoru Elena Kovaleva belә deyir.**





**Qoç** - Mәqsәdlәr arasında çaş-baş qalmayın. Qarşınıza bir hәdәf qoyun, onu prioritet sayın vә әldә etmәyә çalışın. Eyni vaxtda bir neçә iş görmәyin heç bir mәnası yoxdur. Günün ikinci yarısında işdә rәhbәrlik vә hәmkarlarla münaqişә istisna olunmur.



**Buğa** - Cari mәsәlәlәrin hәllindә nizamı pozmayın. Xidmәti, maliyyә vә mәişәt mәqamlarındakı çәtinliklәrin aradan qaldırılması üçün zәruri addımlar atın. Verdiyiniz vәdә әmәl edin, dediklәrinizi unutmayın.



**Əkizlәr** - Önәmli mәsәlәlәrin hәllindә ciddi olun. Şit zarafatlar edәn, tәlxәk tәsiri bağışlayan insanlardan uzaq durun. Tapşırıqları vaxtında yerinә yetirin. Ağır işlәri görmәkdәn qaçmayın.



**Xәrçәng** - Əvvәlki anlaşmaları vә sövdәlәşmәlәri unutmayın. Yarımçıq işlәri başa vurun. Fәaliyyәt sahәsi ilә yanaşı, şәxsi münasibәtlәrdәki anlaşılmazlıqları aradan qaldırın. Əks tәqdirdә tәk qala bilәrsiniz.



**Şir** - Mәqsәdә doğru aparan yoldakı müxtәlif sәdlәr vә problemlәri aradan qaldırmaq üçün tәşәbbüskar olun. Situasiya o qәdәr dә sәrfәli, rahat deyil. İrәliyә doğru usanmadan, yorulmadan hәrәkәt edin.



**Qız** - Önәmli qәrarlar vә çәtin danışıqlar zamanıdır. Yaxın gәlәcәkdәki işlәriniz, perspektivlәriniz bugünkü davranışınızdan asılıdır. İfrat dәrәcәdә mühafizәkar olan hadisәlәrin әnәnәvi axarını pozmaqdan çәkinmәyin.



**Tәrәzi** - Çәtin, qarışıq gündür. Ən sadә tәsir bağışlayan mәsәlәlәr elә çәtinlәşәcәk ki, çıxış yolunu tapmaq ağırlaşacaq. Mәişәt qayğıları tәcili hәllini tәlәb edir. İşdә rәhbәrlikdәn yeni tapşırıq alacaqsınız.



**Əqrәb** - Yaranan problemlәri dәrhal hәll edin. Çözüm prosesini tәxirә salmayın, cavab tәlәb edәn sualları araşdırılmasını ertәlәmәyin. İşgüzar mәsәlәlәrin yoluna qoyulmasında nә qәdәr cәsarәtli olsanız, bir o qәdәr yaxşıdır.



**Oxatan** - Qәti qәrar vermәzdәn әvvәl yaxşı düşünün. Sadәlövh olmayın, hәr deyilәn sözә inanmayın. Elementar tәhlükәsizlik qaydalarına riayәt edin. Ətrafınızdakı insanların tәlәblәrini birmәnalı şәkildә qulaqardına vurmayın.



**Oğlaq** - Emosional baxımdan dayanıqlı olun. Dәmir qәtiyyәtiniz, iradәniz vә tәmkininiz olmalıdır. Yaşamın az qala bütün sahәlәrindә qәfil hadisәlәr, tәsadüflәr sizi sınağa çәkәcәk.



**Dolça** - Peşәkarlıq sizdәn mütәhәrrik vә çeviklik tәlәb edir. Qәtiyyәtli, әzmkar olun. Kimsәnin qarşısında geri çәkilmәyin. Fövqәladә vәziyyәtlәrdәn çıxış yolunu sürәtlә arayın. Astagәl vә lәng olmayın.



**Balıqlar** - Ehtiyatlı, sayıq olun. Əvvәllәr әldә etdiyiniz tәcrübәlәr sizi yeni sәhvlәrdәn hifz edәcәk. Peşәkar fәaliyyәt müstәvisindәki mümkün dәyişikliklәri sakit, tәmkinlә qәbul edin.

*Qoroskop Rusiya vә Qәrb astroloqlarının proqnozları әsasında hazırlanıb*

# Alimlәrdәn xәbәrdarlıq - Dәhşәtli ekoloji fәlakәt başlayır

**Alman entomoloqlar canlıların kütlәvi tәlәfatına dair faktlar tapıblar. "Ölkә.az" xәbәr verir ki, bu, dinozavrların ölümündәn sonra әn böyük ekoloji fәlakәt ola bilәr.**

Alimlәrin sözlәrinә әsasәn, canlı alәmin üçdә ikisini tәşkil edәn hәşәratlar sürәtlә mәhv olacaqlar. Bu isә qida zәnciri vә ekosistem üçün faciәlәrlә nәticәlәnәcәk. Alimlәr Reyn sahillәrindәki әrazilәrdә tәlәlәrin vasitәsilә tutulub vә 80 milyon buğumayaq nümunәsi nәzәrdәn keçirilib. Mәlum olub ki, 1994-cü ildәn aparılan müşahidәdә hәşәratların bio kütlәsi 76 faizә düşüb. Buğumayaqlar quşlar üçün qida mәnbәyidir.

**Alimlәr bildirirlәr ki, Qәrbi Avropa tezliklә "çıxılmaz nöqtә"yә çatacaq vә buna sәbәb dә bio müxtәlifliyin kritik azalması olacaq. Bundan sonra, isә eko sistemi әvvәlki vәziyyәtinә qaytarmaq mümkün olmayacaq.**

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şәhәri, Mәtbuat pr. 529-cu mәhәllә, 6-cı mәrtәbә*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qәzet hәftәdә 5 dәfә çıxır. (Bazar vә bazar ertәsindәn başqa). «BZ»-dә çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qәzetdә «Olaylar» vә «Trend» informasiya agentliklәrinin materiallarından istifadә edilir.

Reklam mәtninә görә qәzet mәsuliyyәt daşımır.